*Gündəlik ictimai-siyasi qəzet*

# XALQ QƏZETİ

*№ 147 (29119) 10 iyul 2019-cu il, çərşənbə*

Qəzet 1919-cu ildən nəşr edilir
www.xalqqazeti.com

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

# Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun görüşü olub









**İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə təkbətək görüşü olub. Daha sonra tərəflər geniş tərkibdə görüşüblər.**

**Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tusku qarşıladı. Təkbətək görüşdə çıxış edən Prezident İlham ƏLİYEV dedi:**

– Cənab prezident, Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə görməyə çox şadıq. Mən sizin Azərbaycana bundan əvvəlki səfərinizi xatırlayıram. O vaxtdan bu yana Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər uğurla inkişaf edib.

Biz çox sayda görüş keçirmişik və çox uğurla inkişaf edən əməkdaşlığımızla bağlı geniş spektrli məsələləri müzakirə etmişik. Bu, çox sahələri əhatə edir və biz tərəfdaşlığımızı yeni səviyyəyə yüksəltməyə nail olmuşuq.

Əminəm ki, səfər çox uğurlu olacaq. Əlbəttə ki, biz gündəliyimizdə duran məsələləri müzakirə edəcəyik və Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək əməkdaşlığı planlaşdıracağıq. Əminəm ki, qarşıdakı illərdə biz tərəfdaşlığın müsbət məcrada inkişafını davam etdirəcəyik, bu da Azərbaycanın maraqlarına xidmət edir. Ümidvaram ki, uğurla həyata keçirdiyimiz bütün layihələr yaxşı nəticələr verəcək. Bir daha xoş gəlmisiniz. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzulayıram.

***

**Avropa İttifaqı Şurasının prezidenti Donald TUSK dedi:**

– Təşəkkür edirəm, cənab Prezident! Sizin qonağınız qismində burada – Bakıda, Azərbaycanda olmaq hər zaman böyük məmnuniyyətdir. Bu, yəqin ki, mənim Avropa İttifaqı Şurasının prezidenti qismində Bakıya son səfərimdir. Mənim niyyətim Avropada bizim hamımız üçün Sizin ölkənizlə mümkün qədər ən yaxşı əlaqələrə sahib olmağın nə dərəcədə mühüm olduğunu vurğulamaqdan ibarətdir. Mənim mesajım tamamilə aydındır.

Mən bizim əlaqələrimizə gəldikdə, Sizin şəxsi rolunuzun, şəxsi iştirakınızın nə dərəcədə əhəmiyyətli olduğunu bilmənizi istəyirəm. Mən Sizin səylərinizi həqiqətən qiymətləndirirəm. Siz hər zaman çox konstruktivsiniz və Sizin çox müsbət və konstruktiv rolunuz sayəsində bizim görüşlərimiz də olduqca səmərəli keçir. Bir daha təşəkkür edirəm, cənab Prezident!

***

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskla işçi nahar çərçivəsində geniş tərkibdə görüşü olub.

***AZƏRTAC***



**Azərbaycan diplomatiyası: BİR ƏSRLİK İNKİŞAF YOLU** 4



**ATƏT Parlament Assambleyasından regiondakı münaqişələrə obyektiv yanaşma** 5



**Yeni geosiyasi qüvvə: Türkiyə–Çin əməkdaşlığı inkişafda** 7



**Vladimir Zelenski: Donbasda müharibəni dayandıracaq yeganə “silah” diplomatiyadır** 8

# Azərbaycan Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı



❐ *İyulun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk mətbuata bəyanatlarla çıxış ediblər.*

– Hörmətli cənab Prezident, əziz qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, mən bir daha Avropa İttifaqı Şurasının prezidenti cənab Donald Tusku Azərbaycanda salamlamaq istərdim. Bu, cənab prezidentin ölkəmizə ilk səfəri deyil, Avropa İttifaqı Şurasının prezidenti qismində ikinci səfəridir. Mən dəfələrlə Brüsseldə səfərdə olmuşam. Beləliklə, bu, bizim çox fəal siyasi dialoq apardığımızı göstərir. Cənab prezidentin bugünkü səfəri bir daha onu nümayiş etdirir ki, Avropa Komissiyası ilə Azərbaycan arasında əlaqələrin çox müsbət dinamikası var.

Bu gün təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə görüşlərimiz zamanı biz ikitərəfli əməkdaşlığımıza dair geniş spektrli məsələləri, regional inkişaf və təhlükəsizlik məsələlərini müzakirə etdik. Biz yeni sazişlə bağlı Avropa Komissiyası ilə Azərbaycan arasında davam edən danışıqları müzakirə etdik. Danışıqların perspektivləri ilə bağlı fikirlərimizi ifadə etdik. Danışıqlar uğurla davam edir. Bir çox məsələlər artıq öz həllini tapıb. Hazırda biz yaxşı tərəfdaşlıq ruhunda digər məsələlər üzərində iş aparırıq. Ötən il Avropa Komissiyası ilə Azərbaycan arasında Tərəfdaşlıq prioritetləri sənədi qəbul olundu. Bu, çox mühüm sənəddir. Burada Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunur. Bu gün Cənab Prezidentlə təkbətək görüşümüz zamanı mən ona Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz barədə məlumat verdim. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən həll olunmalıdır. Uzun illərdir ərazilərimiz erməni işğalı altındadır. Bir milyondan çox qaçqın və məcburi köçkün bu təcavüz və işğaldan əziyyət çəkir. Bizim qəti mövqeyimiz ondan ibarətdir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Səylərimiz münaqişənin ən tez zamanda həllinə yönəlib. Münaqişənin indiyədək həll olunmamasının əsas səbəbi Ermənistanın qeyri-konstruktiv mövqeyidir. Qeyd etməliyəm ki, beynəlxalq ictimaiyyətin və ATƏT-in Minsk qrupunun səyləri münaqişənin ən tez zamanda həllinə yönəlməlidir. Status-kvo qəbuledilməzdir və dəyişməlidir. Status-kvonun dəyişməsi Azərbaycan ərazilərinin işğaldan azad edilməsinin başlanması deməkdir.

Bu gün biz, həmçinin enerji təhlükəsizliyi, nəqliyyat sektoru ilə bağlı məsələləri müzakirə etdik. Azərbaycan və Avropa İttifaqı bu sahələrdə çox konstruktiv əməkdaşlıq edir. Cənub Qaz Dəhlizi layihəsi uğurla həyata keçirilir. Nəqliyyat sektoruna gəlincə, Azərbaycanda logistika və nəqliyyat sahəsinə yatırılan investisiyalar bizə mühüm nəqliyyat habına çevrilmək imkanı verib. Şərq-Qərb və Şimal-Cənub dəhlizləri ölkəmizin ərazisindən keçir. Sözsüz ki, coğrafi mövqeyimiz üstünlük yaradır, lakin nəqliyyat sektoruna investisiyalar yatırılmasaydı, coğrafi mövqeyimiz o qədər də böyük məna kəsb etməzdi. Bu səbəbdən də son illərdə bizim bu istiqamətdəki səylərimiz artıq yaxşı nəticələr verir, Azərbaycan mühüm tranzit ölkəyə çevrilir. Gələcəkdə bizim tranzit ölkə kimi rolumuz sözsüz ki, artacaq.

Biz digər sektorlarda da yaxşı əməkdaşlıq edirik. Ümidvarıq ki, bütün planlarımız həyata keçiriləcək. Çünki Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələr tərəfdaşlıq ruhu və qarşılıqlı dəstəyə əsaslanır. Mən bu əlaqələrin inkişafına verdiyi şəxsi töhfəyə görə xüsusilə prezident Tuska minnətdarlığımı bildirmək istərdim. O, Azərbaycandakı vəziyyətə yaxşı bələddir. Onun bizim yaxınlaşmağımızda rolu çox mühümdür. Biz də öz tərəfimizdən Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığı gücləndirmək üçün çox işlər görürük. Mən, həmçinin qeyd etmək istərdim ki, Azərbaycan Avropa İttifaqının bir neçə üzv ölkəsi ilə strateji tərəfdaşlığa dair sənədləri qəbul edib və ya imzalayıb. Bu da bizim əməkdaşlığımıza yaxşı töhfədir.

Cənab prezident, bir daha xoş gəlmisiniz. Bu gün bizimlə olduğunuza görə təşəkkür edirəm.



## Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun bəyanatı



– Əvvəla bizi səmimi qarşıladığınıza və bizə göstərdiyiniz qonaqpərvərliyinizə görə Sizə təşəkkür edirəm, cənab Prezident. Bakıya qayıtmaq məndə həqiqətən də məmnunluq hissi doğurur. Kağızımda "küləklər şəhəri" yazılıb, mən bilirəm, bu, Bakının ənənəvi adıdır, lakin bu gün şəhər çox sakit görünür.

Azərbaycan çox nadirdir. Ölkəniz özündə ənənə və müasirliyi birləşdirir. Bu günün mürəkkəb coğrafi landşaftındakı strateji mövqeyinizə görə Siz həm Şərqə, həm də Qərbə doğru baxırsınız. Əvvəllər də qeyd etdiyim kimi, cənab Prezident, Avropa İttifaqı Azərbaycanın suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəstəkləyir. Avropa İttifaqı və Azərbaycan hər il bir-birinə yaxınlaşır. Münasibətlərimiz intensivləşib və mənim bugünkü səfərim buna aydın işarədir. 2018-ci ildə biz tərəfdaşlıq üzrə prioritetləri müəyyən etdik və Ümumi Aviasiya Məkanı üzrə Saziş, habelə yeni Aİ-Azərbaycan sazişi üzrə danışıqlar yekunlaşmaq üzrədir. İqtisadiyyatlarımız bunlardan faydalanacaq və bizim siyasi, biznes və mədəni münasibətlərimiz dərinləşəcək. Əlbəttə ki, biz bizi sözün həqiqi mənasında birləşdirən Cənub Qaz Dəhlizini unutmamalıyıq. Bu müsbət məqam tərəfdaşlığımızı daha yüksək səviyyəyə qaldırmalı, bütün xalqlarımız üçün birbaşa faydalı olmalıdır, Azərbaycanın islahatlar və iqtisadi şaxələnmə prosesini müşayiət etməlidir.

Azərbaycan özünü nəqliyyat və logistika qovşağına çevirmək üçün mühüm addımlar atıb. Mən Azərbaycanın Şərq və Qərb, eyni zamanda, Şimal və Cənub tərəfdaşları üçün iddialarının təcəssümü olan Bakı limanına səfər etməyi səbirsizliklə gözləyirəm.

Bu gün Prezident Əliyevlə apardığım müzakirələrdə mən Azərbaycanla əməkdaşlığı daha da dərinləşdirmək üçün Avropa İttifaqının hazır olduğunu bir daha təsdiq etdim və eyni zamanda, bizim qanunun aliliyi, insan hüquqları və əsas azadlıqlara nə qədər böyük önəm verdiyimizi vurğuladım. Avropa İttifaqı hesab edir ki, həqiqətən açıq olan cəmiyyət uzunmüddətli sabitliyin və bütün vətəndaşlar üçün yaxşı həyatın ən gözəl təminatıdır.

Regionda sabitliyə istinad edərək biz, həmçinin həll olunmamış Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdik. Bu münaqişə hərbi yolla yox, yalnız beynəlxalq hüququn prinsipləri əsasında siyasi yolla öz həllini tapmalıdır. Avropa İttifaqı Minsk qrupu həmsədrlərinin səylərini və Helsinki Yekun Aktının əsas prinsipləri əsasında diqqətin münaqişənin ədalətli və davamlı həllinə yönəlməsini tamamilə dəstəkləyir.

Biz, ümumilikdə gərginliyin azalmasını yüksək dəyərləndiririk, lakin təmas xətti boyunca son itkilər həmsədrlər kimi bizi də narahat edir. Güc tətbiq etməmək üçün təmkinli olmaq önəmlidir, lakin, eyni zamanda, sülhə və səmərəli danışıqların aparılmasına imkan verən abhavanın bərpasına yönəlmiş tədbirlər də mühüm əhəmiyyət kəsb edir. Avropa İttifaqı artıq sülhün qurulmasına yönəlmiş fəaliyyətləri dəstəkləyir və xalqları sülhə hazırlamaq üçün konkret tədbirlərlə kömək etməyə hazırdır.

Nəhayət, bu gün günün ikinci yarısında mən Qobustana səfər etmək şərəfinə nail olacağam. Romalı legionerlər tərəfindən qaya üzərində çəkilən təsvirlər Azərbaycanın minilliklər ərzində Avropada necə də mühüm yer tutduğunun sübutudur. Bu zaman dönəmində mən tərəfdaşlığımızı gələcək illərdə inkişaf etdirəcəyimizi səbirsizliklə gözləyirəm.

Sağ olun, cənab Prezident.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

### 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Məmmədyarov Elmar Məhərrəm oğlu

### 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Əzimov Araz Böyükağa oğlu
Hacıyev Hikmət Fərhad oğlu
Həsənov Həsən Əziz oğlu
Həsənov Ramiz Ayvaz oğlu
Hüseynov Nadir Sabir oğlu
Xələfov Xələf Alı oğlu
Quliyev Hüseyn Rzaqulu oğlu
Quliyev Vilayət Muxtar oğlu
Məmməd-Quliyev Mahmud Əhməd oğlu
Orucov Hidayət Xuduş oğlu
Paşayev Hafiz Mir Cəlal oğlu
Polad Bülbüloğlu
Zeynalov Həsən Sultan oğlu

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Abdullayev Şahin Şakir oğlu
Axundov Cavanşir Əşrəf oğlu
Allahverdiyev Qaley Əliyeviç
Bağırov Faiq Nüsrət oğlu
Əliyev Mahir Məmməd oğlu
Əliyev Yaşar Teymur oğlu
Əlizadə Əli Fikrət oğlu
Həsənov Eldar Hümbət oğlu
İsgəndərov Fuad Eldar oğlu
İsmayılov Rəşad Fail oğlu
İsrafilov Qalib Malik oğlu
Qarayev Tamerlan Elmar oğlu
Qəhrəman Elxan Cahangir oğlu
Qəndilov Lətif Seyfəddin oğlu
Qurbanov Fəxrəddin İsa oğlu
Məmmədov Rəşad Eynəddin oğlu
Məmmədzadə Həsən Dilsuz oğlu
Mustafayev Rəhman Sahib oğlu
Nəcəfbəyli Murad Nizami oğlu
Nəcəfov Hüseyn Nizami oğlu
Osmanov Qüdsi Dursun oğlu
Poluxov Elxan Polux oğlu
Rzayev Rasim Şəmsəddin oğlu
Rzayev Tural Anar oğlu
Sadıqov Vaqif İsmayıl oğlu
Sultanov Elnur İxtiyar oğlu
Süleymanov Elin Emin oğlu
Şıxəliyev Əşrəf Fərhad oğlu
Şükürov Ağasəlim Səmədağa oğlu
Tağızadə Tahir Tofiq oğlu
Zeynallı Əkrəm Akif oğlu

### "Tərəqqi" medalı ilə

Ağayev Nəsimi Məhəmmədəli oğlu
Əhmədzadə Məmməd Bahəddin oğlu
Fərhadov Xəzər Nadir oğlu
Hacıyev Məsim Abdulla oğlu
Hüseynov Cavidan Rizvan oğlu
Hüseynov Hüseyn İsmayıl oğlu
İbrahim Xəzər Zafir oğlu
İsmayılzadə Fariz Akif oğlu
İsmayılzadə Gürsel Qüdrət oğlu
İsmayılzadə Pərviz Cəfər oğlu
Kərimov Emil Zülfüqar oğlu
Qasımov Sultan Məhəmməd oğlu
Quliyev Nuru Ələkbər oğlu
Mirzəzadə Pərvin Xəyyam oğlu
Sadıqov Toğrul Fikrət oğlu
Səlimov Eldar Nadir oğlu

### "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

Əhmədov Zaur Rəşid oğlu
Əliyev İlham Salam oğlu
Hacıyev Vüqar Cəbi oğlu
Həbibzadə Elcan İbrahim oğlu
Hüseynov Hüseyn Cəlal oğlu
Qurbanov Ramil Kamil oğlu
Qurbanov Vüqar İsrail oğlu
Məmmədzadə Kamran Vahid oğlu
Musayev Cavid Xəlil oğlu
Musayev Cavid Sokrat oğlu
Nəbiyev Rizvan Novruz oğlu
Nəsibov Ruslan Rafael oğlu
Ramazanov Ağacavid Ağamehdi oğlu
Sadıqbəyli Rövşən Nüsrət oğlu
Şükürov Zaur Ramiz oğlu
Yusifov Mikayıl Vahid oğlu

### "Diplomatik xidmətdə fərqlənməyə görə" medalı ilə

Abdullayeva Dilarə Zakir qızı
Ağakişiyev Sərxan Tehmur oğlu
Baratlı Rəşad Həmid oğlu
Becanov Samir Arif oğlu
Cəfərov Nadir Yavər oğlu
Əhmədov Elvin Eldar oğlu
Ələkbərli Vüsal Ziyad oğlu
Ələsgərli Emin Xanoğlan oğlu
Əliyev Tale Cahangir oğlu
Fətəliyev Ziya Fazil oğlu
Hacızadə Ayxan Elxan oğlu
İbrahimov Vüqar İsa oğlu
İbrahimova Jalə İbrahim qızı
Kərimli Fəxri Tələt oğlu
Qafarov Vüqar Fariz oğlu
Lətifov Ramel Muqabil oğlu
Məmmədəliyeva Leyla Novruz qızı
Məmmədova Gülnarə Daşdəmir qızı
Musayev Azər Samiddin oğlu
Novruz Rəşad İntiqam oğlu
Novruzova İlahə İlham qızı
Panin Dmitri Yevgenyeviç
Rəfiyev Yalçın İlqar oğlu
Səfərov Emil Firdovsi oğlu
Vəkilova-Mərdəliyeva Mərziyə Cavanşir qızı
Zeynalov Qoşqar Aslan oğlu.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyul 2019-cu il**

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirənin iştirakçılarına

**Hörmətli müşavirə iştirakçıları!**

Sizi salamlayır və Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Şərqdə, müsəlman dünyasında ilk parlament respublikasının - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması haqqında İstiqlal Bəyannaməsində təsbit olunduğu kimi, bütün millətlərlə dost münasibətlər yaratmaq Cümhuriyyətin xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən edilmişdi.

Ötən il 100 illik yubileyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi qısa müddət ərzində böyük işlər görə bilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın 1919-cu ildə qəbul edildiyi tarix - iyulun 9-u Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilir. Bu gün həmin tarixdən düz 100 il keçir.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası da Azərbaycan Xalq Cümhuriyyətinin üzləşdiyi çətinliklərlə qarşılaşmışdı. Ermənistan tərəfindən Azərbaycana qarşı ərazi iddiaları və torpaqlarımızın işğalı, mürəkkəb siyasi proseslər, sosial-iqtisadi problemlər müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan Respublikasının taleyini sual altına qoymuşdu.

1993-cü ilin iyununda xalqın israrlı tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı tariximizdə dönüş nöqtəsi oldu. Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən qurtararaq inkişaf yoluna çıxardı, ölkəmiz bütün sahələrdə inamla irəliyə doğru addımlamağa başladı və xarici siyasət strategiyamızın təməl prinsipləri müəyyən olundu. Ötən dövr ərzində biz güclü, qüdrətli dövlət qura bildik və bu gün biz əminliklə deyə bilərik ki, Azərbaycan dövləti heç vaxt indiki kimi güclü olmamışdır.

Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan, beynəlxalq aləmdə böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı daim artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır, mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir və buna görə də ölkəmizə böyük hörmət və rəğbətlə yanaşırlar.

Ölkəmizin xarici siyasəti uğurlu daxili siyasətimizin davamıdır. Müstəqilliyimizin möhkəmləndirilməsində, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında, ölkəmizin beynəlxalq birliyin fəal üzvünə çevrilməsində diplomatlarımızın, diplomatik xidmət orqanlarımızın müstəsna xidmətləri var.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması, işğal olunmuş ərazilərimizin azad edilməsi və ölkəmizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinin bərpa edilməsi xarici siyasətimizin gündəliyində duran ən vacib məsələdir. Ardıcıl diplomatik səylərimiz nəticəsində beynəlxalq ictimaiyyət ölkəmizin ərazi bütövlüyü və suverenliyini, münaqişənin məhz bu prinsiplər əsasında həllini qətiyyətlə dəstəkləyir.

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyi münasibətilə Xarici İşlər Nazirliyinin, səfirliklərimizin və nümayəndəliklərimizin əməkdaşlarına, xarici siyasət sahəsində çalışan bütün şəxslərə bir daha ən səmimi təbriklərimi yetirir, Azərbaycanın milli maraqlarının qorunması, ölkəmizin beynəlxalq aləmdə layiqincə təmsil olunması və xarici siyasət xəttinin müvəffəqiyyətlə həyata keçirilməsi kimi məsul və şərəfli işdə uğurlar arzulayıram.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2019-cu il**

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarına diplomatik rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının aşağıdakı əməkdaşlarına diplomatik rütbələr verilsin:

**fövqəladə və səlahiyyətli səfir**

Abdullayev Elman Telman oğlu
Aslanov Rəşad Fəxrəddin oğlu
Həsənov Dursun Ayvaz oğlu
Həsənov Ramin Müzəffər oğlu
Hüseynov Bünyad Səməd oğlu
İbrahimova Xanım Məmməd qızı
İmanov Anar Laçın oğlu
Kərimov Anar Qabil oğlu
Qurbanova Nərgiz Akif qızı
Məhərrəmov Anar Abel oğlu
Teymurov Rəmzi Kazım oğlu

**birinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Xuduyev Azər Xudayar oğlu
İsmayılov Fəxrəddin Nəcəf oğlu
Qurbanov Oktay Sudef oğlu
Məmmədov Qaya Məmməd oğlu

**ikinci dərəcəli fövqəladə və səlahiyyətli elçi**

Atamoğlanov Ağalar Rahim oğlu
Əskərov Əlimirzamin Qəvvam oğlu
İskəndərov İlqar Fazil oğlu
Musayev Tofiq Fuad oğlu
Süleymanov Nüsrət Süleyman oğlu
Süleymanova Leyla Emin qızı.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyul 2019-cu il**

# Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Qərbi Sibirin Tümen vilayətində nəhəng neft və qaz yataqlarını kəşf etmiş məşhur azərbaycanlı geoloq, görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı Fərman Qurban oğlu Salmanovun xatirəsini əbədiləşdirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan, xüsusi istedadı ilə fərqlənən 2 nəfər tələbə üçün "Fərman Salmanov adına təqaüd" təsis edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Şəmkir şəhərində Fərman Salmanovun heykəlinin ucaldılmasını təmin etsin;

2.2. Şəmkir rayonunda təhsil aldığı ümumi təhsil müəssisəsinə Fərman Salmanovun adının verilməsini təmin etsin;

2.3. bu Sərəncamın 1-ci hissəsi ilə təsis edilən adlı təqaüdün verilməsi qaydasını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 9 iyul 2019-cu il**

# Diplomatik xidmət orqanları rəhbərlərinin VI müşavirəsinin iştirakçıları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar

❐ ***Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin VI müşavirəsinin iştirakçıları Prezident İlham Əliyevə müraciət ünvanlayıblar.***

Müraciətdə əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş, Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən qətiyyətli daxili və müstəqil xarici siyasət nəticəsində Azərbaycan Respublikasının iqtisadi inkişafı və hüquqi dövlət quruculuğu sahəsində böyük nailiyyətlər əldə olunduğu bildirilir. Vurğulanır ki, dövlətimizin başçısının rəhbərliyi altında ölkəmizin təşəbbüsü və iştirakı ilə regional və beynəlxalq əhəmiyyətli layihələr həyata keçirilib, həmçinin mühüm strateji enerji və nəqliyyat-kommunikasiya layihələrinin icrası davam edir.

Qeyd edilir ki, cari ilin Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyinə təsadüf etdiyi nəzərə alınaraq, diplomatik xidmət orqanları tərəfindən yubileylə bağlı bir sıra tədbirlər keçirilir. Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının yaranmasının 100 illiyi tədbirləri çərçivəsində, həmçinin iyulun 9-da diplomatik xidmət orqanları rəhbərlərinin VI müşavirəsi keçirilib. Müşavirədə dövlətimizin başçısının diplomatik xidmət orqanları qarşısında qoyduğu xarici siyasət xəttinin həyata keçirilməsi istiqamətində vəzifə və tapşırıqlar yekdilliklə dəstəklənib. Fəaliyyətin bu tələblər çərçivəsində həyata keçirilməsi üçün səylər artırılacaq.

Müraciətdə bildirilir ki, yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslərə baxmayaraq, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində daxili sabitlik və inkişafını təmin etmək, iqtisadiyyatının müsbət artım dinamikasına nail olmaqla və irimiqyaslı layihələr həyata keçirməklə beynəlxalq səviyyədəki mövqe və nüfuzunu daha da möhkəmləndirib. Azərbaycan Respublikasının xarici siyasəti, ilk növbədə, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, onun beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi, milli maraqlarımızın beynəlxalq müstəvidə təmin edilməsinə xidmət edən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri üzərində qurulub. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının diplomatik xidmət orqanları bundan sonra da beynəlxalq münasibətlər sistemində Azərbaycan dövlətinin maraqları və milli mənafeyinin layiqincə qorunması və təmin olunması istiqamətində müstəqil və çevik fəaliyyətini davam etdirəcək. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə son qoyulması, torpaqlarımızın işğaldan azad edilməsi, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi və məcburi köçkünlərimizin öz yurd-yuvalarına qayıtması diplomatiyamızın ən başlıca vəzifəsidir.

Müraciətdə diplomatik xidmət orqanlarına göstərdiyi daimi diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin təşəkkür ifadə olunur: "Sizi əmin edirik ki, Azərbaycan diplomatiyasının 100 illik tarixi irsini və ənənələrini bundan sonra da layiqincə davam etdirəcək, milli maraqlarımızın beynəlxalq müstəvidə təmin edilməsi istiqamətində səylərimizi əsirgəməyəcəyik".

***AZƏRTAC***

# Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Bakı Limanının fəaliyyəti ilə tanış olub

❐ ***İyulun 9-da Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin fəaliyyəti ilə tanış olub.***



İqtisadiyyat naziri Şahin Mustafayev yeni Bakı Limanının fəaliyyəti, iş prinsipi barədə qonağı məlumatlandırıb. O bildirib ki, 2018-ci il mayın 14-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin açılışında iştirak edib. Limanın inşası Prezident İlham Əliyevin ölkənin regional nəqliyyat qovşağına çevrilməsi siyasətində mühüm yer tutur. Azərbaycan Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərində yerləşməklə yeni limanın zəngin tranzit potensialı yaradır, ona ölkəyə daxil olan, ölkədən daşınan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirmək, Xəzər dənizi ilə səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin etmək imkanı verir. Bu kompleks Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yükyığma məntəqəsi funksiyalarını yerinə yetirir. Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yüklər yeni liman kompleksində toplanır və Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınır. Həmçinin Bakı Limanı Avropa-Asiya ticarət dövriyyəsində mühüm mövqeyə malikdir. Azərbaycan Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi əhəmiyyətli rol oynayır. Yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazidə sərbəst iqtisadi zona yaradılır. Bu, mühüm nəqliyyat qovşağı olan limanı tranzit və daşımalar üçün daha geniş imkanlarla təmin edəcək.

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov qonağa məlumat verib ki, limanda tətbiq olunmağa başlanan IT sistemi bütün əməliyyatları avtomatlaşdırıb yük sahibinə onlayn rejimdə yükə nəzarət etmək, ərazidəki yerini təyin etmək və sair üstünlüklər verir. Yüklərin sürətli və səmərəli yüklənib-boşaldılması üçün Liman Əməliyyat İnformasiya Sistemi vasitəsilə əraziyə daxil olan konteyner, TIR vasitəsilə gətirilən quru yüklərin gəmilərə yüklənmə və boşalma vaxtı müəyyən edilir və proseslər həmin qrafikə uyğun həyata keçirilir. İnternet vasitəsilə işləyən bu əməliyyat sistemi yük sahibinə yükün Bakı Limanına daxil olması və limandan çıxması barədə dərhal məlumat verir. Tətbiq edilən ən son müasir texnoloji və mühəndis həlləri kompleksi regionda beynəlxalq tələblərə cavab verən ən müasir və rahat yükaşırma mərkəzinə çevirir, mühüm nəqliyyat qovşağı kimi onun tranzit və daşıma imkanlarını artırır.

Sonra qonaq limanda yaradılan infrastrukturla tanış olub.

İqtisadiyyat naziri Şahin Mustafayev məlumat verib ki, liman 400 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır. Müasir dövrün ən son mühəndislik yeniliklərindən olan dəmir-beton konstruksiyalı istinad divarının uzunluğu isə 1777 metr təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün iki körpü, yeddi körpüdən ibarət universal quru yük və konteyner terminalı, iki bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü inşa edilib. Limanda xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni vaxtda 11 gəmi yan ala bilər. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Ümumiyyətlə isə bütün inşa işləri bitdikdən sonra liman mövcud 17 körpüsü ilə 25 milyon ton yük, o cümlədən 500 min konteyner yük aşıra biləcək.

***AZƏRTAC***

# Qobustan Milli Tarix-Bədii Qoruğu Avropa İttifaqı Şurasının prezidentində xoş təəssürat yaradıb

❐ ***Azərbaycanda səfərdə olan Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk iyulun 9-da Qobustan Milli Tarix-Bədii Qoruğunda olub.***



Əvvəlcə qonaq qoruğun ərazisində yaradılmış muzeydə nümayiş etdirilən eksponatlara baxıb.

Məlumat verilib ki, Qobustan Dövlət Tarix-Bədii Qoruğu açıq səma altında qoruq-muzey kimi böyük şöhrət qazanıb. Ərazidə daş dövründən son orta əsrlərə qədərki həyat və məişəti əks etdirən çoxsaylı maddi mədəniyyət nümunələrini müasir azərbaycanlıların ulu ecdadları min illər ərzində yaradıblar. Qobustan qaya rəsmləri dünyada bu tipli abidələrdən ən zənginidir. Qoruq ərazisində alimlər tərəfindən 6 mindən çox qayaüstü təsvir, 20 mağara və yaşayış yeri, 40 kurqan aşkar edilib və öyrənilib.

Qeyd edilib ki, Qobustan Milli Tarix-Bədii Qoruğundakı nadir qayaüstü rəsmlərin geniş təbliğinin xüsusi əhəmiyyətini nəzərə alan dövlətimizin başçısı İlham Əliyevin sərəncamı ilə qoruq muzeyi üçün yeni bina tikilib.

Qonağın diqqətinə çatdırılıb ki, dünya əhəmiyyətli tarixi abidə olan Qobustan qoruğu 2007-ci ildə UNESKO-nun Maddi–Mədəni İrs Siyahısına daxil edilib.

Donald Tusk ərazidə aparılmış tədqiqat işləri ilə və tarixi eksponatlarla maraqlanıb.

Sonda qonağa Qobustanın tarixini əks etdirən kitablar hədiyyə olunub.

Avropa İttifaqı Şurasının prezidenti Qobustan Milli Tarix-Bədii Qoruğundan xoş təəssüratla ayrılıb.

***AZƏRTAC***

# UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işçi iclaslarını başa çatdırıb

## *Ümumdünya İrs Komitəsinin 44-cü sessiyasına Çin Xalq Respublikası sədrlik edəcək*




❐ ***Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 9-da öz işini davam etdirib.***

Tədbiri açan sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın mədəniyyət naziri Əbülfəs Qarayev iştirakçılara plenar iclasdan əvvəl keçirilmiş büro iclası barədə məlumat verib. Bildirib ki, büro iclasında bu günlər ərzində görülən işlər, qəbul edilən qərarlar müzakirə edilib. İşçi qrup ciddi sənədlər hazırlayıb və onlar təsdiqlənməlidir. Bu gün büdcə əməliyyat layihələri ilə bağlı sənədlərə baxılacaq.

Müzakirələr zamanı Ümumdünya İrs Siyahısında olan Ekvadorun Qalapaqos milli parkı, Qvatemalanın Antiqua xristian dini məbədi, Nigeriyanın Aqades tarixi mərkəzi, Seyşel Adalarında yerləşən Valle-de-Mo təbii qoruğunun bərpası və konservasiyası, idarə olunması ilə bağlı beynəlxalq yardımın artırılmasının vacibliyi vurğulanıb.

Sonra maliyyə və inzibati məsələlər müzakirə olunub. 2018-2019-cu illər üçün büdcənin icrasına dair hesabat və Dünya İrs Fonduna 2020-2021-ci illər üçün büdcə təklifləri nəzərdən keçirilib. Bildirilib ki, sessiya çərçivəsində işçi qrupun bir sıra görüşləri olub və burada təkliflər səsləndirilib. Norveç, Tunis, Küveyt, Bəhreyn, Bosniya və Herseqovina və digər ölkələrin nümayəndələrinin çıxışları dinlənilib. İşçi qrupun işi müsbət qiymətləndirilib.

Daha sonra Ümumdünya İrs Komitəsinin prosedur qaydalarına dəyişikliklər müzakirə olunub. Bu qərar da qəbul edilib.

İclasın sonunda 2020-ci ildə Ümumdünya İrs Komitəsinin 44-cü sessiyasına Çin Xalq Respublikasının sədrlik edəcəyi və sessiyanın Fuçjou şəhərində keçiriləcəyi bildirilib.

Ümumdünya İrs Komitəsinin növbəti sessiyasına ölkəsinin sədrlik edəcəyini söyləyən Çinin Təhsil nazirinin müavini və UNESKO üzrə Milli Komissiyasının rəhbəri Tian Sue Jun bu etimada görə komitə üzvlərinə minnətdarlığını bildirib. O deyib: "Azərbaycan Hökumətinə, xüsusən də Mədəniyyət Nazirliyinə Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına yüksək səviyyədə ev sahibliyi etdiyinə görə təşəkkür edirəm. Eləcə də ölkənizin Şəki ilə bağlı nominasiyasının Ümumdünya İrs Siyahısına salınması münasibətilə xalqınızı təbrik edirəm. Bu, Azərbaycanın böyük uğurudur, tarixi mədəni irs nümunələrinizin təbliği və tanıdılması baxımından əhəmiyyətlidir. Azərbaycan bu cür beynəlxalq miqyaslı tədbirlərin keçirilməsi ilə bağlı böyük təcrübəyə malikdir. Sessiya müddətində biz bunun bir daha şahidi olduq. Ümumdünya İrs Komitəsinin Çində keçiriləcək 44-cü sessiyasında ölkənizin bu təcrübəsindən yararlanmaq niyyətindəyik".

UNESKO-nun dünya irsinin yaşadılması, gələcək nəsillərə çatdırılması üçün mühüm işlər gördüyünü bildirən Çinin Təhsil nazirinin müavini deyib ki, Bakıda müxtəlif xalqların mədəni irsinin qorunması üçün mühüm qərarlar qəbul edilib. "Bu seçim Çinin mədəni irsinə verilən böyük dəyərdir. Çalışacağıq ki, 44-cü sessiya da Bakıdakı kimi möhtəşəm və yaddaqalan olsun", - deyə Çin rəsmisi vurğulayıb.

Sonra Fuçjou şəhərinin tanıtım videoçarxı nümayiş etdirilib. 44-cü sessiya iclaslarının sədri, sədr müavinləri və məruzəçilər, sessiyanın müvəqqəti gündəliyi təsdiq edilib.

Bununla da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası işçi iclaslarını başa çatdırıb.

İyulun 10-da UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının bağlanış iclasında tədbirin yekun sənədi qəbul ediləcək.

***AZƏRTAC***

# Avropa İttifaqı Şurası prezidentinin Azərbaycana səfəri başa çatıb



**Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun Azərbaycan Respublikasına səfəri iyulun 9-da başa çatıb.**

Avropa İttifaqının bayrağının və Azərbaycan Respublikasının dövlət bayrağının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusku Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov və digər rəsmi şəxslər yola salıblar.

***AZƏRTAC***

# Xarici İşlər Nazirliyinin kollektivi ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib



**Azərbaycan Respublikasının diplomatik xidmətinin yaradılmasından 100 il keçir. 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyi Katibliyinin yaradılmasına dair qərarın qəbul edilməsi dövlətimizin peşəkar diplomatik xidmətinin başlanğıcı hesab olunur. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə böyük önəm verən ulu öndər Heydər Əliyev diplomatiyamızın sağlam əsaslara söykənməsinə daim diqqət və qayğı göstərib.**

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin 2007-ci il 24 avqust tarixli fərmanı ilə 9 iyul Azərbaycan diplomatlarının peşə bayramı günü elan edilib. Bu, dövlətimizin başçısının Azərbaycan diplomatiyasına və diplomatlarına diqqət və qayğısının bariz nümunəsidir.

Diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı münasibətilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin kollektivi iyulun 9-da Fəxri xiyabanda xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra nazirliyin kollektivi Şəhidlər xiyabanına gedərək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini anıb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirə keçirilib

❒ ***İyulun 9-da Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Prezident İlham Əliyevin Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirənin iştirakçılarına təbrik məktubunu oxuyub (Məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunur).***





Müşavirədə çıxış edən xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan diplomatiyasının bir əsrlik inkişaf yolu, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə yeni yaranmış respublikanın tanıdılması istiqamətində atılmış addımlar, Cümhuriyyətin süqutundan sonra sovet dövründə Xarici İşlər Komissarlığının fəaliyyəti və nəhayət, müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikasının təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və hazırda Prezident İlham Əliyevin müvəffəqiyyətlə davam etdirdiyi, milli maraqlarımıza əsaslanan dinamik və fəal xarici siyasətimiz barədə danışıb.

Nazir qeyd edib ki, 100 il bundan öncə Birinci dünya müharibəsindən sonra cərəyan edən gərgin bir dövrdə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin maraqlarını beynəlxalq aləmdə layiqincə təmsil etmək üçün müsəlman Şərqində ilk respublikanın Xarici İşlər Nazirliyi təsis edilmişdir. Şübhəsiz ki, Azərbaycan Xalq Cümhuriyyəti yarandığı ilk gündən çoxşaxəli diplomatik fəaliyyətə başlamış, lakin Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın qəbul olunması məhz 9 iyul 1919-cu il tarixinə təsadüf etdiyindən, Azərbaycan Respublikası Prezidentinin 2356 saylı, 24 avqust 2007-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü təsis olunmuşdur. Sovet işğalı nəticəsində Cümhuriyyətimizin qısa ömür yaşamasına baxmayaraq, ilk respublikanın Xarici İşlər Nazirliyinin diplomatik heyəti geniş təcrübəyə yiyələnmiş, mühüm nailiyyətlər əldə etmiş və müstəqil xarici siyasət fəaliyyətimizin əsasını qoymuşlar. 1991-ci ildə Sovet İttifaqının süqutu ilə Azərbaycan xalqı öz milli istiqlaliyyətini yenidən bərpa edə bilmişdir. Ermənistanın hərbi təcavüzünə məruz qalmış, ağır iqtisadi böhran və kəskin daxili çaxnaşmaların hökm sürdüyü Azərbaycanın bu mürəkkəb vəziyyətdən çıxacağına o zaman bir çoxları inanmırdı. 1993-cü ildə ümummilli lider Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışı Azərbaycanda sabitlik və inkişafın təməlini qoydu. Ulu öndərin əsas məqsədi Azərbaycanı daha qüdrətli və zəngin dövlətə çevirmək, dünya birliyində nüfuzunu daha da möhkəmləndirmək və əsl söz sahibinə çevirmək idi və bu hədəflərə də şərəflə nail olundu.

Nazir vurğulayıb ki, bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, milli maraqlarımıza əsaslanan Azərbaycanın müasir xarici siyasət strategiyası Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün müvəffəqiyyətlə davam etdirilir. Yerləşdiyi region ətrafında cərəyan edən ziddiyyətli proseslər şəraitində ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində daxili sabitlik və inkişafını təmin etmək, iqtisadiyyatını müsbət artım dinamikasına kökləmək və irimiqyaslı layihələr həyata keçirməklə beynəlxalq səviyyədəki mövqe və nüfuzunu daha da möhkəmləndirməyə müvəffəq olub.

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan Respublikasının xarici siyasət fəaliyyəti, ilk növbədə, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi, onun beynəlxalq sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi, milli maraqlarımızın beynəlxalq müstəvidə təmin edilməsinə xidmət edən bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri üzərində qurulub. Bu gün beynəlxalq ictimaiyyət birmənalı şəkildə Azərbaycanın beynəlxalq sərhədləri çərçivəsində onun suverenliyi və ərazi bütövlüyünü dəstəkləyir. Ermənistanın işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması və münaqişənin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü əsasında həll olunması BMT-nin Təhlükəsizlik Şurası və Baş Assambleyasının məlum qətnamələri ilə yanaşı, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərarlarında da öz əksini tapır.

Nazir deyib ki, ötən müşavirədən keçən dövr ərzində Azərbaycan Respublikasının Əlcəzairdə və İraqda səfirlikləri, Kolumbiya, Çili, Uruqvay və Peruda diplomatik ofisləri açılıb, Avstriya, Sudan, Cibuti, Paraqvay, İtaliya və Maltada yeni fəxri konsulluqları fəaliyyətə başlayıb. Azərbaycanda isə Peru, Kosta-Rika, Meksika, Venesuela və Çilinin səfirlikləri, Əlcəzair, Portuqaliya, Xorvatiya, Estoniya və Monteneqronun diplomatik ofisləri, həmçinin San-Marino, Sloveniya, Makedoniya və Efiopiyanın fəxri konsulluqları açılıb. Azərbaycan Respublikası ilə Tanzaniya Respublikası, Vanuatu Respublikası, Baham Adaları Birliyi, Samoa Dövləti, Palau Respublikası, San-Tome və Prinsipi Demokratik Respublikası arasında diplomatik münasibətlər qurulub. Hazırda Azərbaycan Respublikasının xarici dövlətlərdə 59 səfirliyinin, 5 beynəlxalq təşkilat yanında daimi nümayəndəliyinin, 9 baş konsulluğunun, 11 təmsilçilik ofisinin və 15 fəxri konsulluğunun fəaliyyət göstərdiyini deyən E.Məmmədyarov əlavə edib ki, ölkəmizdə isə 66 dövlətin səfirliyi, 4 baş konsulluq, 13 fəxri konsulluq və 22 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur.

Nazir bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Xarici İşlər Nazirliyi bundan sonra da beynəlxalq münasibətlər sistemində Azərbaycanın dövlət maraqları və milli mənafeyinin layiqincə qorunması və təmin olunması istiqamətində müstəqil və çevik xarici siyasət fəaliyyətini davam etdirəcək.

# Azərbaycan diplomatiyası: BİR ƏSRLİK İNKİŞAF YOLU

**Biz o kəsləri dahi adlandırırıq ki, onlar sıradan təqvim gününü, normativ statistikanı tarixə, salnaməyə çevirməyi bacarırlar. Bir neçə gündən sonra hakimiyyətə gəlişinin yarım əsrlik tarixçəsini qeyd edəcəyimiz ulu öndər Heydər Əliyev məhz bu cür nadir insanlardan idi. Lakin ulu öndərin böyüklüyü həm də onda idi ki, milli yaddaş, milli təfəkkür, milli dövlətçilik ərkanı ilə bağlı taleyüklü məsələlərdə bir varislik əlaqəsi yarada bilmişdi ki, həmin qiymətli irsin, mirasın davamçısı cənab Prezident İlham Əliyevdir.**

Məhz Azərbaycan Prezidenti İlham Əliyev özünün 16 may 2017-ci il tarixli "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Sərəncamı ilə 2018-ci ili "Cümhuriyyət ili" elan etdi.

Azərbaycanın ilk müstəqil dövləti 1918-ci ildə quruldu.

Bununla bağlı ümummilli liderimiz deyirdi: "Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır".

Bəli, müsəlman Şərqində ilk demokratik dövləti quran babalarımız vətəndaşlıq şücaəti ilə yaranmış və yazılmış şərəfli bir tarixi obyektiv səbəblər üzündən 23 ay yaşada bildilər.

Tədqiqatçılar hesablayıblar ki, Xalq Cümhuriyyəti mövcud olduğu qısa bir zaman içində 350 ilkə imza atmışdır. Onların arasında elələri vardı ki, 70 illik sovet hakimiyyəti belə millətin dövlətçilik yaddaşından silib ata bilmədi – bayrağımız, himnimiz, gerbimiz. İlk parlament, dövlət aparatı, sərhədlərimiz... onlardan da əvvəl "İstiqlal Bəyannaməsi".

Həmin ilklərdən biri də müstəqil dövlətin xarici siyasət xidmətinin yaradılması ilə bağlı olmuşdur. 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyətinin Hökuməti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimat qəbul etmişdir. Və məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 24 avqust 2007-ci il tarixli sərəncamına uyğun olaraq həmin tarix Azərbaycanın diplomatik xidmət orqanlarının işçiləri gününün təsis olunmasının əsasını təşkil edib.

Diplomatik xidmət orqanları rəhbərlərinin növbəti müşavirəsi də məhz ölkəmizdə diplomatik xidmətin 100 illiyi kimi əlamətdar bir vaxtda keçirilir.

Bir qədər tarixə ekskurs edərək söyləyək ki, kifayət qədər mürəkkəb siyasi şəraitdə yaranmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilk gündən xarici siyasət məsələlərinə həssaslıqla yanaşmış, gənc müstəqil respublikanın beynəlxalq miqyasda tanıdılması, milli həqiqətlərin dünyaya çatdırılması, eləcə də qonşu və region dövlətləri ilə diplomatik münasibətlərin formalaşdırılması istiqamətində sistemli tədbirlər həyata keçirilmişdir.

Bu hədəflərin reallaşdırılması üçün Cümhuriyyətin bütün yeni yaradılmış hökumət kabinetlərində xarici siyasət idarəsinin fəaliyyətinə xüsusi yer verilir, onun hərtərəfli təchizatı diqqət mərkəzində saxlanılırdı. Həmin dövrdə xarici siyasət idarəsinə diplomatiya sahəsində səriştəsi olan Fətəli xan Xoyski, Məmmədhəsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan Ziyadxanlı kimi şəxsiyyətlərin rəhbərlik etməsi bunu bir daha təsdiqləyir. Azərbaycan Parlamentinin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında iştirakı da Xalq Cümhuriyyətinin xarici siyasətində ən mühüm hadisələrdən biri kimi tarixiləşmişdir.




Azərbaycanın yeni reallıqlar şəraitində əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və cənab Prezident tərəfindən daha böyük uğurla davam etdirilən xarici siyasəti belə bir köklü-şaxəli, eyni zamanda, nəzəri-konseptual irsə söykənir.

XXI yüzillik bəşər tarixinə yeni siyasi mühit, yeni geosiyasi prioritetlər, beynəlxalq güc mərkəzlərinin yeni nizamı və beynəlxalq münasibətlərin fərqli konfiqurasiyası ilə daxil oldu. Nə qədər dünyəviləşsək, demokratikləşsək də dünyanın siyasi düzənini müəyyənləşdirən güc inhisarçılarının ikili standartları təşviq edən siyasətinə daha tez-tez rast gəlirik. Belə bir şəraitdə Azərbaycanın gənc və müstəqil dövlət kimi düzgün hesablanmış, dəqiq və təkmil konsepsiyaya əsaslanan milli xarici siyasi kurs yeritməsi müstəsna əhəmiyyətə malikdir.

Ölkəmizin xarici siyasət kursunun söykəndiyi effektiv dəyərlər sistemi mövcuddur. Özünün ən müxtəlif səviyyəli çıxışlarında cənab Prezident Azərbaycanın xarici siyasətini mükəmməl bir konsepsiya kimi təqdim eləyir; həm ölkə, həm də dünya ictimaiyyətinə. O, həmişə deyir ki, baxmayaraq ki, biz dünyəvi dövlət qururuq, amma biz öz kökümüz üzərində dövlət qururuq. Milli-mənəvi dəyərlərimizdən, qədim və zəngin dövlətçilik irsimizdən, müasir potensialımızdan qidalanan, eyni zamanda, sivil bəşəriyyətə xas olan mütərəqqi keyfiyyətləri sıyırıb özündə ehtiva edən bir dövlət qururuq. Məhz belə bir münbit əməkdaşlığa arxalanan xarici siyasət dövlətin milli təhlükəsizliyini, suverenliyini və müstəqilliyini qorumağa qadirdir.

Müstəqil xarici siyasət yeridən, milli təhlükəsizliyi təmin etmək üçün hücumçu diplomatiyaya üstünlük verən Azərbaycan hakimiyyəti daxili potensialına və resurslarına, ən başlıcası, xalqın dəstəyinə güvənir.

Cənab Prezidentin də ifadə etdiyi kimi, bu daxili amillər, yəni iqtisadi gücümüz, dünyada artan nüfuzumuz bizə imkan verir ki, bundan sonra da prinsipial xarici siyasət xətti yeridək. Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş və etibarlı dost kimi təqdim edə bilmişdir.

Hesab edirik ki, diplomatik xidmət orqanlarının nümayəndələri bundan sonra da xarici siyasətimizin taleyüklü məsələlərinin həllində səylərini əsirgəməyəcəklər.

Bu gün xarici siyasətimizin əsas prioriteti Dağlıq Qarabağ problemi ilə bağlı Azərbaycan həqiqətlərinin dünyaya daha israrlı, iddialı və qətiyyətli şəkildə çatdırılmasıdır.

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli limiti tükənməyib. Bu birmənalıdır, qətidir. Müharibələr tarixi də göstərir ki, bütün müharibələrin taleyi danışıq masaları arxasında həll olunur. Xalq həmişə sülh və təkamül yolunu seçir. Dövlət başçıları, liderlər də özlərində iradə, səbat, müdriklik tapmalıdırlar ki, bu yola daha tez yetişməyin üsul və vasitələrini işləyib hazırlasınlar.

Biz, həmişə vurğuladığımız kimi, bu münaqişənin həllini birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi çərçivəsində görürük. Və Prezidentimizin də ifadə etdiyi kimi, istədiyimiz odur ki, Ermənistan rəhbərliyi, nəhayət, qəflət yuxusundan ayılıb regionda gedən prosesləri düzgün qiymətləndirsin, ərazi iddialarından əl çəksin, onu hansı aqibətin gözlədiyini soyuq mühakimə ilə təhlil etsin. Problemlə bağlı dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların mövqeyi birmənalıdır. Beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri Azərbaycanın öz torpaqları üzərində suveren hüquqlarını təsbit edir.

Birmənalıdır ki, uğurlu xarici siyasətin təməlini qüdrətli iqtisadiyyat təşkil edir. Ölkəmizin iştirakçısı və təşəbbüskarı olduğu müxtəlif beynəlxalq layihələr geniş regional əməkdaşlıq üçün möhkəm əsas yaradır. Biz nəqliyyat infrastrukturuna – dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırmaqla əlverişli coğrafi mövqeyimizi real nəqliyyat imkanlarına çevirmişik. Bu gün Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişdiyi vacib tranzit ölkəyə çevrilib. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti Asiya və Avropa arasında vacib logistik bağlantıdır. Bütün bunlar həm beynəlxalq əməkdaşlıq formatını yaradır, xalqları və ölkələri bir-birinə bağlayır, sülh və sabitliyə xidmət edir, həm də xarici siyasi əlaqələrin məhsuldar məcraya yönəlməsində təkanverici rol oynayır.

Fürsətdən istifadə edib, xarici siyasət sahəsində çalışan bütün şəxsləri diplomatik xidmət orqanlarının yaradılmasının 100-cü ildönümü münasibətilə ürəkdən təbrik edir, güclü, qüdrətli və müstəqil Azərbaycan uğrunda gələcək işlərdə uğurlar arzulayırıq!

***N.İ., K.A.***
***Newtimes.az***

# Mən Azərbaycan Prezidentinin Avropa İttifaqı ilə əməkdaşlıq səylərini yüksək qiymətləndirirəm

**Dünən Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ilə təkbətək görüşü olub. Avropa rəsmisinin ölkəmizə növbəti səfərinin bütün məqamları maraqlı və dəyərli olsa da, məni cənab Tuskun ölkəmiz haqqında dedikləri daha çox məmnun etdi.**

Avropalı qonaq dedi: "Mənim Azərbaycanla əməkdaşlıq barədə niyyətim Sizin ölkənizlə mümkün qədər ən yaxşı əlaqələrə sahib olmağın nə dərəcədə mühüm olduğunu vurğulamaqdan ibarətdir. Mənim mesajım tamamilə aydındır".

ATƏT Parlament Assambleyasının son qətnaməsindən cəmi iki-üç gün sonra Avropa İttifaqı Şurası prezidentinin də sanki üzünü İrəvan tərəfə tutub danışırmış kimi "Mənim mesajım tamamilə aydındır" deməsi, qətiyyən təsadüfi ola bilməzdi. Cənab Tusk elə-belə – söz xatirinə danışan siyasətçilərdən deyil.

Avropalı qonaq əlavə etdi ki, bizim əlaqələrimizə gəldikdə, bu məsələdə Azərbaycan Prezidentinin şəxsi rolunun, şəxsi iştirakının nə dərəcədə əhəmiyyətli olduğunu bilmənizi istəyirəm: "Mən Sizin səylərinizi həqiqətən qiymətləndirirəm. Siz hər zaman çox konstruktivsiniz və Sizin çox müsbət və konstruktiv rolunuz sayəsində bizim görüşlərimiz də olduqca səmərəli keçir".

Dövlət başçımızın qonağa xitabən dediyi "biz çox sayda görüş keçirmişik və çox uğurla inkişaf edən əməkdaşlığımızla bağlı geniş spektrli məsələləri müzakirə etmişik" arqumenti də sabaha inam yaradan fikirlərlə davam edirdi: "Əminəm ki, qarşıdakı illərdə biz tərəfdaşlığın müsbət məcrada inkişafını davam etdirəcəyik, bu da Azərbaycanın maraqlarına xidmət edir. Ümidvaram ki, uğurla həyata keçirdiyimiz bütün layihələr yaxşı nəticələr verəcək."

***Əlisahib HÜSEYNOV,***
***Demokratik Azərbaycan Dünyası Partiyasının sədri***

# ATƏT Parlament Assambleyasından regiondakı münaqişələrə obyektiv yanaşma

## Ermənistan sanksiyalara məruz qala bilər

❒ ***Ulu öndər Heydər Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyünün bərpası şərti ilə həll olunacağını əminliklə dilə gətirir və əlavə edirdi ki, bunun üçün vaxt lazımdır. Xatırladırdı ki, zaman gələcək, Azərbaycanın bu probleminin həll edilməmiş qalması bir çox dairələri narahat edəcəkdir.***



Artıq həmin zaman gəlir. İndi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən çıxıb getməsini, demək olar ki, bütün beynəlxalq təşkilatlar tələb edirlər. Doğrudur, həmin təşkilatlar 10-15 il əvvəl də bu istəkdə idilər. Amma beynəlxalq aləmdə mövcud olan ikili standartlar bir çox insanların həqiqəti söyləməsinə mane olurdu. Həm Azərbaycan dövlətinin uğurlu xarici siyasətinin nəticələri, həm də beynəlxalq aləmdə gedən bəzi ictimai–siyasi proseslər artıq hamının həqiqəti söyləməsinə zəmin yaradır.

Bu gün Azərbaycan həqiqətlərini olduğu kimi qiymətləndirməyə çalışan nüfuzlu beynəlxalq təşkilatlardan biri də ATƏT Parlament Assambleyasıdır. Azərbaycan dövlətinin bu təşkilatla təmasları sıx və səmərəli olsa da, son zamanlar əməkdaşlığımız daha intensiv xarakter alıb. Məsələn, ötən ayın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT Parlament Assambleyasının prezidenti Georgi Sereteli ni qəbul etmişdi. Görüşdə Azərbaycan --ATƏT Parlament Assambleyası əlaqələri, Ermənistan --Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdı.

Bir gün sonra -- iyunun 12-də isə Bakıda regional təhlükəsizlik və əməkdaşlıq üzrə parlament konfransı və Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasının təsis konfransı keçirilmişdi. Konfransın keçirilməsində məqsəd regional təhlükəsizliyə təhdid yaradan amillərin qarşısının alınması yollarını, qarşılıqlı inam və dialoqun gücləndirilməsi, iştirakçı ölkələr arasında əməkdaşlığın keyfiyyətcə yeni səviyyəyə yüksəldilməsi, nəqliyyat və enerji sahələrində əlaqələrin inkişaf etdirilməsi məsələlərini müzakirə etmək, həmçinin Dialoq və Əməkdaşlıq üzrə Bakı Parlament Platformasını yaratmaq idi.

Bu baxımdan ATƏT PA-nın iştirakı ilə Regional Təhlükəsizlik və Əməkdaşlıq üzrə Parlament Konfransının Bakıda keçirilməsinin, Almaniya, Türkiyə və Azərbaycandan olan parlamentarilərin ilk dəfə olaraq belə formatda bir araya gələrək regionu narahat edən məsələləri müzakirə etməyə başlamasının çox böyük əhəmiyyəti və siyasi perspektivi var.

ATƏT Parlament Assambleyasının prezidenti Georgi Sereteli çıxış edərək konfransın əhəmiyyətindən danışmış və bildirmişdi ki, ATƏT üzv dövlətlər arasında əlaqələrin inkişafını təşviq edir. Münaqişələrin həlli, problemlərin aradan qaldırılması üçün dialoq ən optimal yoldur. G.Sereteli inandığını bildirib ki, bu gün aparılacaq müzakirələr qarşılıqlı dialoqun daha da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcək.

Almaniya Bundestaqının vitse-prezidenti Tomas Oppermann da yeni platformanın regional və beynəlxalq münaqişələrin həllində mühüm rol oynayacağına inandığını bildirmiş, onun Azərbaycanın münaqişələrin həlli işinə növbəti töhfəsi olduğunu demişdi. Türkiyə Böyük Millət Məclisinin vitse-spikeri Süreyya Sadi Bilgiç belə bir platformanın yaradılmasının bir çox baxımdan böyük əhəmiyyətə malik olduğunu demiş və regionda sabitliyə təhdid olan, 30 ilə yaxındır ki, davam edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bir daha xatırlatmışdı.

Həmin konfransdan təxminən bir ay sonra – iyulun 8-də Lüksemburqdan gələn xəbər sübut etdi ki, ATƏT Parlament Assambleyasının rəsmiləri Azərbaycanla əməkdaşlığın genişləndirilməsində maraqlı olduqları barədə fikir söyləyəndə tam səmimi idilər. Belə ki, həmin gün ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyası "Təhlükəsizliyin təmin olunması üçün dayanıqlı inkişafın gücləndirilməsi: parlamentlərin rolu" mövzusuna həsr olunmuş sessiyada Azərbaycan tərəfinin maraqlarının təmin olunmasına çağıran qətnamə qəbul etmişdir.

Sessiyada ATƏT PA Siyasi İşlər və Təhlükəsizlik Komitəsinin hazırladığı qətnamə layihəsi geniş müzakirə olunmuşdur. Layihədə regiondakı münaqişələrin həlli üçün tamamilə yeni yanaşmalar öz əksini tapmışdır. Belə ki, indiyədək – təxminən 30 il müddətində postsovet məkanında mövcud olan bütün münaqişələrə "bir gözlə", Dağlıq Qarabağ münaqişəsinə isə tamamilə fərqli gözlə baxılırdı. Prezident İlham Əliyev, BMT Baş Assambleyası da daxil olmaqla, bütün beynəlxalq tribunalardan dönə-dönə demişdi ki, dünya ictimaiyyəti bu ikili yanaşmadan əl çəkməyincə bölgədə sülh və əminamanlığın bərpası mümkün olmayacaq. Bizim bölgədəki sülh və əmin–amanlıq isə bəlkə də özümüzdən çox Avropa ölkələrinə lazımdır. Çünki Azərbaycan Avropanın enerji təhlükəsizliyinin qorunmasında mühüm əhəmiyyət kəsb edən ölkələrdən birinə çevrilib.

ATƏT Parlament Assambleyasının sessiyasında Azərbaycanın mənafelərinə cavab verən qətnamə layihəsinin müzakirə ediləcəyini bilən Ermənistan diplomatik xidmətinin əvvəlcədən müxtəlif ölkələrə apardığı aktiv danışıqlara və Ermənistan nümayəndə heyətinin ATƏT Parlament Assambleyasında çoxsaylı çıxış və görüşlərinə baxmayaraq, Azərbaycan nümayəndə heyətinin səyləri nəticəsində siyasi komitənin qətnamə layihəsində münaqişələrin həlli üçün yeni yanaşma öz əksini tapıb.

Bəs həmin qətnamədə ermənilərin yuxusuna haram qatan məqamlar nədən ibarətdir?

**Birinci:** Bu sənəddə ATƏT və digər beynəlxalq təşkilatların ənənəvi yanaşmasından fərqli olaraq, ilk dəfə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazisində olan münaqişələrə eyni yanaşmanın tətbiq olunmasının vacibliyi öz əksini tapdı. İndiyə qədər müxtəlif ölkə və təşkilatlar, xüsusilə, ikili standart əsiri olmuş siyasətçilər Dağlıq Qarabağ münaqişəsini digər münaqişələrdən ayırmaq və başqa bir yanaşma tətbiq etməyə çağırışları səsləndirirdilər. Yeni qətnaməyə görə isə 30 il ermənilərin maraqlarına xidmət edən həmin yanaşmalar tarixin arxivinə göndərilir.

Burada başqa bir məqam da var. Belə ki, Ermənistan nümayəndə heyəti bu qətnamə layihəsindən Azərbaycanın adının çıxarılmasını, Ukrayna, Gürcüstan və Moldovanın adının saxlanılmasını təklif etmişdi. Onların həmin məkrli təklifi cəmi 6 deputat tərəfindən dəstəklənmiş, 41 deputat isə Azərbaycanın maraqlarına cavab verən layihəyə "hə!" – demişdir.

**İkinci:** Yeni qətnamədə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazilərində mövcud olan münaqişələrin suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipi əsasında nəticəyönümlü danışıqların aparılmasına çağırış öz əksini tapır. Ermənistan bu layihə ilə necə razılaşa bilərdi? Onlar özləri də işğalçı, separatçı, terrorçu olduqlarını çox yaxşı bilirlər. Ona görə də münaqişələrin xalqların öz müqəddəratını təyinetmə prinsipi ilə deyil, ölkələrin ərazi bütövlüyünün qorunması prinsipi ilə həll edilməsi çağırışı "Ermənistanın başına daş salınması"dır.

Bundan başqa, qətnamədə öz əksini tapan "nəticəyönümlü danışıqların aparılması" çağırışı da İrəvan rəsmilərini dəli edə bilər. Çünki onlar otuz ildir ki, hansısa bəhanə ilə danışıqlar prosesindən qaçırdılar. Hətta Serj Sarkisyan Rusiya kimi güclü dövlətin vasitəçiliyi ilə keçirilən danışıqlardan qaçmasının "qarnının ağrıması" ilə əsaslandırmışdı. Halbuki, onların "qarnının ağrımasının" əsas səbəbi bizim diplomatiyamız qarşısında aciz qaldıqlarına görə vaxtı uzatmaq olduğunu hamı bilirdi.

**Üçüncü:** İrəvan rəhbərləri uzun illər idi ki, danışıqlar prosesinə Qarabağın erməni icmasının da qatılmasını tələb edirdilər. Hətta bir çox hallarda "Qarabağın erməni icmasının qatılmadığı danışıqlarda biz iştirak etməyəcəyik," – deyə dünya ictimaiyyətini şantaj etməyə çalışırdılar. ATƏT Parlament Assambleyası isə qəti qərara gəldi ki, danışıqlar formatının dəyişdirilməsi yolverilməzdir. Yəni, İrəvan rəsmiləri separatçı Dağlıq Qarabağ rejiminin danışıqlar masasına gətirilməsi istəyindən birdəfəlik əl çəkməlidirlər. Üstəlik, qətnamədə "münaqişə ərazisi kimi" ( bu termin indiyədək gündəliyə gətirilməmişdi) yalnız Azərbaycanın adı göstərilir. Bu isə o deməkdir ki, ATƏT PA Dağlıq Qarabağın da, işğal olunmuş ətraf rayonların da Azərbaycan ərazisi olduğunu ermənilərə başa salır.

**Dördüncü:** ATƏT Parlament Assambleyası İrəvan rəsmilərinə və xəstə təxəyyüllü erməni ideoloqlarına başa salır ki, "Dəvədən böyük fil də var". Qətnamədə göstərilir ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamədən sonra ATƏT PA-nın da münaqişənin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında həll olunması vacibliyini hamı kimi ermənilər də qəbul etməlidirlər.

Xatırladaq ki, ATƏT PA-nın siyasi əhəmiyyəti bu qətnaməsindəki bütün bəndlər Ermənistanın artıq dalana dirəndiyini sübut edir. Ermənilər nəhayət, başa düşməlidirlər ki, bu siyasi məzmunlu beynəlxalq sənəd onları sanksiyalara məruz qoya bilər. Ona görə də "ziyanın yarısından qayıtmağın da xeyir" olduğunu anlamalıdırlar. Əgər xəstə təxəyyül onların normal düşünməsinə imkan verərsə, düşünər və doğru yola qayıdarlar. Çünki bütün qonşularla düşmən olmaq indiyədək heç kəsə xeyir verməyib.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***





# Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib

❒ ***İyulun 9-da Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirilib.***

Parlamentin Sədri Oqtay Əsədov iclası açaraq gündəliyi təqdim edib. O bildirib ki, gündəliyə 35 məsələ daxildir.

İclasda qanun layihələrini Milli Məclis Sədrinin müavini, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə, Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov təqdim ediblər.

Əvvəlcə üçüncü oxunuşda parlamentə təqdim olunmuş 14 məsələyə baxılıb. Qanun layihələri barədə məlumatlar dinlənilib, fikir mübadiləsi aparılıb. Deputatlar "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanunlarında dəyişiklik edilməsinə dair qanun layihəsini təsdiq ediblər. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət haqqında" qanunlara təklif olunmuş dəyişiklik qəbul edilib. Parlament "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya I və II düzəlişləri təsdiqləyib.

Sonra "Məhkəmələr və hakimlər haqqında" Qanunda, Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəllədə, İnzibati Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, Mülki Məcəllədə, Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanunlar qəbul olunub.

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" və "Bələdiyyələrin statusu haqqında" qanunlar üçüncü oxunuşda təsdiqlənib.

İclasda "Dövlət rüsumu haqqında" Qanuna təklif olunan dəyişikliyi şərh edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, qanun layihəsi xidməti səfərlərin təşkili ilə bağlı prosedurların asanlaşdırılması və bu məqsədlə xarici ölkələrin səfirliklərinə və konsulluqlarına viza rəsmiləşdirilməsi üçün notanın verilməsinə görə dövlət rüsumunun ləğvini nəzərdə tutur. "Dövlət satınalmaları haqqında" Qanuna edilən dəyişikliklə satınalma prosedurlarında iştirak edən malgöndərənlərin (podratçıların) vergi öhdəlikləri ilə bağlı tələblər daha da sərtləşdirilir.

Deputatlar bu qanunların qəbulunu məqsədəuyğun sayıblar.

Gündəlikdəki növbəti 21 məsələ ikinci oxunuşda müzakirəyə təqdim olunub. Parlament həmin qanun layihələrinə bu oxunuşun tələblərinə müvafiq qaydada baxıb.

Deputatlar "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Qanunda ölkədə sosial mühitin daha da yaxşılaşmasına xidmət edən dəyişikliyin edilməsini (ikinci oxunuş) razılıqla qarşılayıblar. Həmçinin "Sosial təminat və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında" Qanunda dəyişikliyə (ikinci oxunuş) müsbət münasibət bildirilib.

"Məhkəmələr və hakimlər haqqında" Qanunda, Vergi Məcəlləsində və "Dövlət satınalmaları haqqında" Qanunda dəyişiklik barədə layihələr də ikinci oxunuşda təsdiqlənib.

Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli bildirib ki, son aylarda ölkəmizdə minimum əmək haqqının 2 dəfə artırılaraq 116 manatdan 200 manata çatdırılması, eləcə də əmək pensiyalarının minimum məbləğinin artırılaraq 1 oktyabrdan etibarən 160 manatdan 200 manata yüksəldilməsi xalqımız tərəfindən çox müsbət qarşılanıb. Deputatlar bununla əlaqədar "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsinə yekdilliklə səs veriblər. Eləcə də özünüməşğulluq tədbirlərinin təşkilinin maliyyələşməsi üzrə əlavə xərclərin artırılması məqsədilə "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında" Qanunda edilən dəyişikliyi ikinci oxunuşda qəbul ediblər.

Parlament Mənzil Məcəlləsində, Vergi Məcəlləsində, "Yol hərəkəti haqqında" Qanunda dəyişikliyi (ikinci oxunuş) məqbul sayıb.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov bildirib ki, növbəti iki qanun layihəsi "Yeyinti məhsulları haqqında" Qanunda 2018-ci ilin 23 fevralında edilmiş dəyişikliklə əlaqədar olub, uyğunlaşdırma xarakteri daşıyır. Birinci oxunuşda deyilən irad və təkliflər nəzərə alınaraq həmin qanun layihələri təkmilləşdirilib, layihədə adları çəkilən qanunların 33 bəndində dəqiqləşdirmə aparılaraq qanunların bir-birinə uyğunluğu tam təmin edilib.

Məlumat dinlənildikdən sonra İnzibati Xətalar və Gömrük məcəllələrində, "Balıqçılıq haqqında", "Yeyinti məhsulları haqqında", "Taxıl haqqında", "Üzümçülük və şərabçılıq haqqında", "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" və "Çayçılıq haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında", "Arıçılıq haqqında", "Reklam haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanunlarda edilən dəyişikliklər (ikinci oxunuş) qəbul olunub.

Əmək Məcəlləsinə, Miqrasiya Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər də (ikinci oxunuş) səsvermə yolu ilə qəbul edilib.

İclasda Çernobıl qəzasının nəticələrinin ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərərçəkmiş vətəndaşların statusu və sosial müdafiəsi, həmkarlar ittifaqları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların özəlləşdirilməsi, gənclər siyasəti, əmək pensiyaları, təhsil, daşınar əmlakın yüklülüyü, işsizlikdən sığorta və əlilliyi olan şəxslərin hüquqları haqqında qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) məsələ də razılıqla qarşılanıb.

Milli Məclis "Su Məcəlləsi"ndə, "Publik hüquqi şəxslər haqqında", "Avtomobil nəqliyyatı haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişikliyə ikinci oxunuşda səs verib.

Bununla da Milli Məclisin növbəti iclası başa çatıb.

***AZƏRTAC***

# Şəkinin tarixi abidələri artıq bəşəri mədəni irs sayılır



**Bugünlərdə Bakıda Şəki ünvanlı önəmli hadisə baş verdi. UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edildi! 7 iyul 2019-cu il tarixi mədəniyyət tariximizə qızıl hərflərlə yazıldı! Yalnız şəkililər üçün deyil, ümumən, Azərbaycanımız, xalqımız, mədəniyyətimiz, mədəni irsimiz üçün dərin anlam daşıyan bu hadisə Şəkini yenidən hamının dilinə, könlünə saldı. Düşərli olsun!**

Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi münasibətilə xalqımızı təbrik edən Prezident İlham Əliyev öz duyğularını bu sözlərlə ifadə etdi: "Son illər Azərbaycanın mədəni irsinin dünya səviyyəsində tanıdılması və qorunması istiqamətində çoxsaylı layihələr həyata keçirilmişdir. Təsadüfi deyil ki, "İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi", "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" UNESCO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bu hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha etirafıdır.

Əziz həmvətənlər! Şəkinin tarixi mərkəzində keçmişimizi özündə təcəssüm etdirən Şəki Xan Sarayı, karvansaraylar, məscid və minarələr, qədim körpülər, sənətkarlıq emalatxanaları və yaşayış evləri bu gündən etibarən təkcə xalqımızın deyil, bəşəriyyətin mədəni irsi hesab olunur".

Azərbaycan 3 iyun 1992-ci ildə UNESKO-ya üzv qəbul edilib. Öncəki illərdə görülmüş işləri gözardı etmədən, Azərbaycan mədəniyyətinin təbliği, irsimizin qorunması sahəsində əməyi keçən hər kəsə könül dolusu təşəkkür edərkən, onu da etiraf edək ki, UNESKO–Azərbaycan əlaqələrində ən parlaq səhifələr Birinci vitse-prezident, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın sayəsində açılıb, çiçəkləyib. Mehriban xanımın təşəbbüsü ilə Azərbaycanda təhsilin, mədəniyyətin və cəmiyyətin müxtəlif sahələri üzrə xoşməramlı missiya həyata keçirilir.

Artıq mötəbər şəxslərin, UNESKO başçılarının da etiraf etdiyi kimi, Azərbaycan mədəniyyətlərarası dialoq və yaxınlaşmada unikal yerə malikdir. Bəs UNESKO-nun bu yeni qərarı bizə nə verəcək?

– bu, ilk növbədə, Azərbaycan mədəniyyətinin təntənəsidir;

– mədəni irsi davamlı olaraq, şəbəkələşmiş düşmən təbliğat maşını ilə üz-üzə qalan bir ölkə olma etibarı ilə, bu, respublikamızın növbəti diplomatik uğurudur;

– UNESKO – Azərbaycan əməkdaşlığının dərin məzmununu, yüksək səviyyəsini və perspektivini ifadə edir;

– respublikamıza, özəlliklə, Şəkiyə turist axınına təkan verəcək;

– Şəkidə milli sənətkarlığı inkişaf etdirəcək;

– xalqımızın öz dəyərlərinə, milli irsə qayğısını artıracaq;

– Azərbaycan mədəni irsi barədə yeni araşdırmalar, elmi-tədqiqat işi stimullaşacaq;

– gənclərdə milli mədəniyyətə maraq artacaq;

– Azərbaycan diplomatlarının təbliğat imkanları genişlənəcək və s.

Şəkidən öncə UNESKO-da Azərbaycanla bağlı qəbul edilmiş qərarları yada salsaq, Şəki haqqında Bakı qərarının sonuncu olmayacağını deyə bilərik.

Bayrağın uca olsun, əziz dövlətim! Şuşanın karvansarayları, Cıdır Düzü, Xan bağı və s. ilə birgə dünya mədəni irs siyahısına salınacağı günə inam və ehtiramla.

***Əkbər QOŞALI,***
***Gənc Türk Yazarları Birliyinin sədri***

# UNESKO-nun Dünya İrs Siyahısı Şəki Xan Sarayını bütün dünyada tanıdacaq

**"UNESKO-nun Dünya İrs Siyahısı beynəlxalq irsin siyahısıdır. Şəkinin qədim hissəsinin, Yuxarı Baş Qoruğun və Şəki Xan Sarayının UNESKO-nun Dünya İrs Siyahısına salınması Azərbaycanı dünyada daha da tanıdacaq". Bunu ölkə KİV-nə açıqlamasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Memarlıq və İncəsənət İnstitutunun Memarlıq abidələrinin qorunması və bərpası problemləri şöbəsinin müdiri Rahibə Əliyeva deyib.**



Alimin sözlərinə görə, siyahıya daxil olan abidələr təkcə aid olduqları ölkənin deyil, həm də bütövlükdə dünyanın irsi sayılır: "Ona görə də bura daxil olan abidələr dünya tərəfindən qorunmalıdır. Azərbaycan üçün bunun müsbət tərəfi odur ki, ölkəmizdəki abidə dünya tərəfindən qorunacaq. Hazırda Şəki Xan sarayı və Şəkinin tarixi mərkəzi ilə yanaşı, "İçərişəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi" və "Qobustan Qaya Sənəti Mədəni Landşaftı" da Dünya İrs Siyahısında yer alır. Şəkinin qədim hissəsinin, Yuxarı Baş Qoruğunun və Şəki Xan Sarayının siyahıya alınması UNESKO-nun nəzarəti altında qorunacaq. Bununla yanaşı ölkəmiz, abidələrimiz və millətimiz dünyada tanınacaq. Bununla da bizim tariximiz bütün dünyada yayılacaq".

***R.TAHİR,***
***"Xalq qəzeti"***

# ATƏT PA-nın qətnaməsi Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün mühüm önəm daşıyır



**ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsizlik komitəsinin qətnaməsində Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazilərində mövcud münaqişələrin həlli üçün tamamilə yeni yanaşmalar öz əksini tapıb. Həmin sənəddə ifadə olunan məqamlarla bağlı bəzi fikirlərimi diqqətə çatdırmaq istərdim. Əvvəlcə onu deyim ki, qətnamədə ATƏT və digər beynəlxalq təşkilatların ənənəvi çağırışlarından fərqli olaraq, adları çəkilən ölkələrin ərazilərində yaşanan münaqişələrə eyni yanaşmanın tətbiq olunmasının vacibliyi öz ifadəsini tapıb. Belə ki, indiyədək bir sıra ölkə və qurum tərəfindən Dağlıq Qarabağ münaqişəsini digər münaqişələrdən ayırmağa və ona xüsusi yanaşma tətbiq etməyə cəhd göstərilib. ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsizlik komitəsinin yeni qətnaməsi ilə bunun qarşısı alınıb. Təbii ki, bu, assambleyanın iclasında iştirak edən erməni nümayəndələrinin ciddi narahatlığına səbəb olub.**

Bax, elə buna görə də ATƏT PA-nın sessiyasında Ermənistan nümayəndə heyəti sözügedən sənəddə yer alan siyahıdan Azərbaycanın adının çıxarılmasına çalışıb. Lakin erməni tərəfinin bütün cəhdləri nəticəsiz qalıb. Azərbaycan oxşar münaqişə ilə üzləşən Ukrayna, Gürcüstan və Moldova ilə bir sırada saxlanılıb.

Bu, fikrimcə, mühüm hadisədir. Eyni zamanda, artıq haqq səsimizin eşidilməsinin nəticəsidir ki, sessiyada Ermənistanın Azərbaycanın adının siyahıdan çıxarılmasını təklif etdiyi dəyişiklik 41 əleyhinə, 6 lehinə olmaqla böyük səs çoxluğu ilə rədd edilib.

Sessiyada qəbul olunan sənədlə, həm də işğalçı dövlətin uzun illər ərzində öz müqəddəratını təyinetmə prinsipindən sui-istifadə etməsi istəyinin qarşısı alınıb. Başqa sözlə, qətnamədə Ukrayna, Gürcüstan və Moldova ilə bərabər Azərbaycanın da ərazisində yaranan münaqişənin suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipi əsasında həlli öz ifadəsini tapıb. Yəni bundan sonra münaqişələrin aradan qaldırılması ilə bağlı danışıqların vurğulanan məqamlar nəzərə alınmaqla aparılması qərara alınıb. Bu isə Ermənistanın sözügedən məsələ ilə bağlı növbəti uğursuzluğunun bariz ifadəsidir.

Burada xatırlatmaq yerinə düşər ki, BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 4 qətnamə qəbul etdikdən sonra ATƏT PA Azərbaycanda olan münaqişənin ölkəmizin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərinin toxunulmazlığı prinsipi əsasında həll olunmasının vacibliyini rəsmən bildirmişdir. ATƏT PA indiki qətnaməsində də əvvəlki mövqeyini, müddəalarını bir daha ifadə edib.

Sənəddə diqqətçəkən həm də odur ki, münaqişə ərazisi kimi yalnız Azərbaycan göstərilib. Bu isə o deməkdir ki, Dağlıq Qarabağ, eləcə də işğal olunmuş ətraf rayonlar Azərbaycan daxilində yerləşir və bizim ərazimizdir.

Məlumdur ki, Ermənistanın baş naziri Nikol Paşinyan baş nazir vəzifəsinə seçilən ərəfədə deyirdi: "Qarabağ konfliktinin beynəlxalq hüquq əsasında sülh yolu ilə həlli çox vacibdir. Əsas məsələ Qarabağ xalqının öz taleyini müəyyən etmək hüququnun beynəlxalq aləm tərəfindən tanınmasıdır. Qarabağın tanınması bizim mübarizə aparacağımız əsas xarici məsələlərdən biri olacaq. Münaqişənin həllinin əsasında xalqların bərabər hüquqlara malik olması və öz müqəddəratını təyin etməsi dayanmalıdır. Dağlıq Qarabağın beynəlxalq səviyyədə tanınmasına yeni impuls verilməlidir. Əgər Azərbaycan bəyan edəcəksə ki, Dağlıq Qarabağ xalqının öz müqəddəratını təyinetmə haqqını tanımağa hazırdır, o zaman münaqişənin kompromis həlli barədə danışmaq olar".

Nikol Paşinyan hakimiyyətdə olduğu müddətdə bu məkrli iddiasını reallaşdırmağa çox cəhd göstərsə də, buna nail ola bilməyib. Sözügedən sənəddə də razılaşdırılmış danışıqlar formatının dəyişdirilməsinin yolverilməz olduğu birmənalı şəkildə qeyd olunub. Təkrar edirəm, bu da işğalçı dövlətin, onun başçısı Nikol Paşinyanın son bir ildə qondarma və separatçı Dağlıq Qarabağ rejiminin danışıqlar masasına gətirilməsi cəhdinin bir daha iflasa uğraması deməkdir.

Fikrimi yekunlaşdırıb deyə bilərəm ki, ATƏT PA-nın Siyasi məsələlər və təhlükəsizlik komitəsinin haqqında bəhs etdiyim qətnaməsi adı çəkilən təşkilatın Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının prinsiplərinə uyğun olaraq güc tətbiq etməmə, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə hüququ əsasında həll olunma prinsiplərinə bir daha aydınlıq gətirib. Münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq ictimaiyyət tərəfindən tanınan sərhədlərin toxunulmazlığı prinsipi əsasında həllinə rəsmi dəstək verib.

***Hüseynbala MİRƏLƏMOV,***
***Milli Məclisin deputatı,***
***YAP Xətai rayon təşkilatının sədri***

# Yubileyə layiqli töhfə



**Bugünlərdə Azərbaycanın diplomatik xidmət orqanlarının 100 yaşı tamam oldu. Məlum olduğu kimi, 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimat qəbul edib. Prezident İlham Əliyevin 24 avqust 2007-ci il tarixli sərəncamı ilə məhz həmin tarix Azərbaycanın diplomatik xidmət orqanlarının peşə bayramı kimi qeyd edilir. Ötən illərə nəzər yetirdikdə bir daha aydın olur ki, milli diplomatiyamızın keçdiyi yol, xüsusilə son 16 ildə bu istiqamətdə xarici siyasətdə əldə olunan nailiyyətlər ölkəmizin dünya birliyinə sürətli inteqrasiyasını və inkişaf yolunu aydın şəkildə əks etdirir.**

Respublikamızın xarici siyasətinin əsasını həm ikitərəfli, həm də çoxtərəfli formatlarda bərabərhüquqlu əsasda qarşılıqlı -- faydalı əməkdaşlıq təşkil edir. Ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi altında milli maraqlara və mövqelərimizin dünya səviyyəsində müdafiə edilməsinə əsaslanan müstəqil, çoxşaxəli və fəal xarici siyasət yeridir. Məhz bu siyasi kursun nəticəsi olaraq, ölkəmizlə əməkdaşlıq etmək istəyən dövlətlərin sayı getdikcə artır.

Xarici siyasətin prioritetlərindən biri də Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə nizamlanmasıdır. Bu istiqamətdə Azərbaycan tərəfinin bütün səylərinə baxmayaraq, Ermənistan işğalçı siyasətindən əl çəkməyərək qeyri- konstruktivlik nümayiş etdirir və bütün vasitələrlə status-kvonu saxlamağa çalışır. İşğalçı ölkənin ordusu cəbhəboyu ərazilərdə təxribat törədir və atəşkəs rejimini pozur. Bütün bunlara baxmayaraq, dövlət başçımızın uğurlu xarici siyasəti qarşısında Ermənistanın bütün cəhdləri iflasa uğrayır.

Təəssüf ki, dünya birliyi hələ də Ermənistan rəhbərliyinin beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizliyinə seyrçi mövqedən yanaşır, işğalçı dövlətə sanksiya tətbiq etmir, ikili mövqedən əl çəkilmir. Artıq beynəlxalq qurumlar ölkəmizin məntiqli xarici siyasəti qarşısında, necə deyərlər, davam gətirə bilmir, əsl həqiqəti etiraf etmək məcburiyyətində qalırlar. ATƏT PA-nın bugünlərdə qəbul etdiyi qətnamə buna misaldır. Bu qətnamə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın maraqları çərçivəsində həlli üçün çox vacib dəstək kimi yüksək qiymətə layiqdir.

Bir neçə gün əvvəl "Təhlükəsizliyin təmin olunması üçün dayanıqlı inkişafın gücləndirilməsi: parlamentlərin rolu" mövzusunda ATƏT Parlament Assambleyasının Lüksemburqda keçirilən 28-ci illik sessiyasında qəbul olunan qətnaməni xarici siyasətimizin növbəti uğuru adlandırmaq olar. Sessiyada müzakirə olunan məsələlərdən biri də Siyasi işlər və təhlükəsizlik komitəsi tərəfindən hazırlanmış qətnamə layihəsi idi. Həmin sənəddə regionda münaqişələrin həlli üçün tamamilə yeni yanaşmalar öz əksini tapmışdır. İşğalçı ölkənin nümayəndələri bütün vasitələrlə bu qətnamənin qəbul olunmamasına çalışırdılar. Hətta Ermənistanın diplomatik xidmətinin əvvəlcədən müxtəlif ölkələrlə apardığı danışıqlara və Ermənistan nümayəndə heyətinin ATƏT Parlament Assambleyasında çoxsaylı çıxış və görüşlərinə baxmayaraq, qətnamə qəbul edildi. Budəfəki qətnamə əvvəlkilərdən tam fərqli idi. ATƏT Parlament Assambleyasının bütün sənədlərində mövcud münaqişələrin dayanıqlı inkişaf və insan hüquqlarının təmini üçün əsas maneə olması xüsusilə vurğulanırdı. Budəfəki sənəddə isə Azərbaycan – Ermənistan, Dağlıq Qarabağ münaqişəsi belə münaqişələrdən biri kimi göstərilib.

Qətnamədə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazilərində mövcud münaqişələrin suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipi əsasında nəticəyönümlü danışıqların aparılmasına çağırış öz əksini taplıb. Bu isə Ermənistanın öz müqəddəratını təyinetmə prinsipindən sui-istifadə etməsinin qarşısını alır. Qətnamədə razılaşdırılmış danışıqlar formatının dəyişdirilməsinin yolverilməz olduğunun birmənalı qeyd olunması da işğalçı ölkəyə ciddi zərbə oldu. Çünki bu bənd Ermənistanın son bir ildə qondarma və separatçı Dağlıq Qarabağ rejiminin danışıqlar masasına gətirilməsi cəhdinin bir daha iflasa uğraması deməkdir.

ATƏT PA-nın bu qətnaməsi xarici siyasətimizin növbəti uğurudur və Azərbaycanın diplomatik xidmət orqanlarının peşə bayramına – 100 illik yubileyinə layiqli töhfədir.

***Mehdi ABDULLAYEV,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının prorektoru, hüquq üzrə elmlər doktoru***

# Avropa İttifaqı Azərbaycanla hərtərəfli əməkdaşlıqda maraqlıdır

***❐ Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun ölkəmizə səfəri və Prezident İlham Əliyevlə görüşü bir daha təsdiqlədi ki, bu nüfuzlu qurumla ölkəmiz arasında münasibətlər yüksək səviyyədədir. Bu münasibət qarşılıqlı hörmət, faydalı əməkdaşlıq və bir-birinin işlərinə qarışmamaq prinsiplərinə söykənir. Bu əməkdaşlıq ortaq maraqlar xəttinə malikdir. Xüsusilə, enerji təhlükəsizliyi sahəsində münasibətlərimizin çox yüksək nəticələri var.***

Bu gün Avropa İttifaqı Azərbaycana yeni alternativ enerji mənbəyi kimi baxır. Avropa İttifaqı özünün enerji mənbələrinin şaxələndirilməsi siyasətində ölkəmizi əsas tərəfdaş hesab edir. Eyni zamanda, Azərbaycan Avropa İttifaqını mühüm tərəfdaş kimi qəbul edir. Azərbaycanın xarici iqtisadi əlaqələrində Avropa İttifaqı birinci mövqeyə malikdir. Tərəflər arasında ticarət dövriyyəsinin həcmi ilbəil artır.

Donald Tusk ölkəmizə səfəri bir daha onu göstərir ki, Azərbaycanla Avropa İttifaqı arasında əlaqələr həm siyasi dialoq, həm ticari, həm iqtisadi əlaqələrin, həm də enerji təhlükəsizliyi, o cümlədən qeyri-neft sektorunda əlaqələrin inkişafı, gələcək perspektivlərin müzakirəsi və qiymətləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.



Xüsusi olaraq vurğulayım ki, Donald Tuskla Prezident İlham Əliyev arasında keçirilən təkbətək görüşdə Avropa İttifaqı Şurasının prezidenti rəhbərlik etdiyi qurumla ölkəmiz arasında əlaqələrdən söhbət açdı. Bu əlaqələrdə o, Prezident İlham Əliyevin rolunu, şəxsi iştirakını və səylərini yüksək qiymətləndirdi. Onun "Siz hər zaman çox konstruktivsiniz və Sizin çox müsbət və konstruktiv rolunuz sayəsində bizim görüşlərimiz də olduqca səmərəli keçir", – deməsi dövlətimizin başçısına olan hörmət və ehtiramın nümunəsidir.

Donald Tuskun Prezident İlham Əliyev haqqında söylədiyi fikirlər bir daha onu göstərir ki, beynəlxalq aləmdə dövlətimizin başçısına çox böyük inam və etimad var.

***Elman NƏSİROV,***
***Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor***

# ATƏT Parlament Assambleyasının son qətnaməsi erməniləri təşvişə salıb

***❐ ATƏT Parlament Assambleyasının 28-ci illik sessiyasında qəbul edilmiş qətnamə bir daha ölkəmizin əsas problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, işğal olunmuş ərazilərimizin taleyinə aydınlıq gətirdi. Sənəddə münaqişənin getdiyi ərazi yalnız Azərbaycan torpaqları kimi göstərilir ki, bu da Dağlıq Qarabağ və işğal olunmuş ətraf rayonların ölkəmizin ayrılmaz hissəsi olduğunu dünya ictimaiyyətinə bir daha xatırladır. Bu baxımdan ATƏT PA-nın budəfəki sessiyasının nəticəsi olaraq qəbul edilmiş qətnamə Azərbaycan diplomatiyasının uğurudur. Çünki söhbət Azərbaycanın ərazi bütövlüyündən, illərdir davam edən münaqişənin suveren sərhədlərimiz çərçivəsində həll edilməsi zərurətindən gedir. Sözügedən qətnamə erməni tərəfini təşvişə salıb.***

Elə sessiyada çıxış etmiş "Çiçəklənən Ermənistan" fraksiyasının deputatı Tiqran Urixanyanın çıxışındakı narahatlıq bunu deməyə əsas verir: "Görünməmiş hərbi texnikanın, insan resurslarının toplanması, tikinti işləri, eləcə də əvvəlcədən bildirilməmiş genişmiqyaslı hərbi təlimlər, fikrimcə, beynəlxalq ictimaiyyəti saymamaqdır.." Erməni deputatın son qətnamənin təşkilatın, beynəlxalq hüquqi aktlarının, ATƏT-in Minsk qrupunun fəaliyyətinin prinsiplərinin və ruhunun əleyhinə olduğunu vurğulaması işğalçı dövlətin fakt qarşısında qaldığını göstərir. Çünki illərdir ki, işğalçı ölkə Azərbaycanın 20 faiz ərazisini işğal altında saxlamaqla, beynəlxalq təşkilatların qətnamə və sənədlərini, eləcə də BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni yerinə yetirməkdən imtina edir, beynəlxalq hüquq prinsiplərinə hörmətsizlik göstərir.

Bəli, erməni deputatın Azərbaycan Ordusunun hərbi təlimlər keçirdiyini xatırlatması işğalçı ölkənin narahatlığının ifadəsidir. Azərbaycan sülh danışıqları ilə ərazi bütövlüyünü bərpa etməyə üstünlük verir, eyni zamanda, öz təhlükəsizliyini artırmaq üçün də hərbi təlimlər keçirir. Bu, işğalçı ölkəyə və dünya ictimaiyyətinə bir mesajdır ki, danışıqlar nəticə verməzsə, Azərbaycan öz torpaqlarını istənilən yolla azad etmək qüdrətindədir.

Ermənistanda Respublika Partiyasının sədr müavini Armen Aşotyan isə Lüksemburqda keçirilmiş sessiya ilə bağlı fikirlərini feysbuk səhifəsində canlı yayımda izləyiciləri ilə bölüşərək, Azərbaycanın işğal edilmiş əraziləri ilə bağlı qətnamənin qəbul edilməsi üçün erməni nümayəndə heyətinin cənfəşanlığını dilə gətirib.

O, çıxışında iqtidara müraciət edərək tənqidi fikirlər də səsləndirib. Bildirib ki, hazırkı iqtidarın təklifi ilə təmsil etdiyi partiya beynəlxalq arenada fəallıq göstərib, lazımi işlər görüb və müəyyən tapşırıqları da onun vasitəsilə partiyadaşlarına çatdırıldığını vurğulayaraq, iqtidarın ünvanına tənqidi fikirlər səsləndirib: "Hörmətli hakimiyyət mənsubları, siz ölkə üçün məsuliyyət daşıyanda, dəstəyə ehtiyacınız olur, ancaq işlər yaxşı gedəndə dərhal qüsursuz iş görənləri və töhfə verənləri unudursuz. Bizim hakimiyyət dairələri hesab edirdilər ki, ölkədə hakimiyyət dəyişikliyi olan kimi, yaxud onların dili ilə desək, "məxməri inqilab" olandan sonra Ermənistan və erməni xalqının əleyhinə heç bir beynəlxalq platformada heç kim antierməni qətnamə ilə çıxış etməyəcək. Bu da növbəti aldanmadır. Ya da bizim hakimiyyət o qədər sadəlövhdür ki, hakimiyyət dəyişikliyinin Ermənistan və Qarabağın təhlükəsizliyi ilə bağlı çoxsaylı çağırışları neytrallaşdıracağını düşünür. İnqilab bu təhdidləri nəinki neytrallaşdırmadı, əksinə, təəssüf ki, düşmən və əleyhdarlarımız üçün müəyyən pəncərə açdı..."

Erməni siyasətçi Armen Aşotyan Azərbaycanın parlament diplomatiyasında bundan sonra da Qarabağla bağlı fəaliyyətini davam etdirəcəyini xüsusi vurğulayıb və nümunə kimi Lüksemburq sessiyasını göstərib. Erməni ekspertin bu etirafları, sözsüz ki, Azərbaycanın haqq səsinin beynəlxalq arenada müdafiəsi və uğurlarının daha da artması və işğalçı Ermənistanın planlarının fiaskoya uğramasından irəli gəlir. Çünki Azərbaycan tərəfi hansı beynəlxalq platformada təmsil olunursa, Qarabağ həqiqətlərini çatdırır və bununla da erməni təxribat və yalanları ifşa olunur. Bu dəfə də belə oldu. Lüksemburq sessiyası Azərbaycan üçün uğurla başa çatdı. Bu, işğalçı ölkənin siyasi arenasında təşviş və narahatlıqla qarşılanır. Belə olmasaydı, Aşotyanın Feysbuk səhifəsindəki videoçıxışında "Lüksemburq hakimiyyət üçün dərs olmalıdır", – fikrini səsləndirməzdi.



Partiya təmsilçisi çıxışının sonunda beynəlxalq ictimaiyyətə heç nə gözləməməyə çağırıb: " Siz Paşinyan və Əliyev görüşünün nəticəsinin beynəlxalq strukturlar tərəfindən yüksək qiymətləndirildiyini bildirəndə beynəlxalq ictimaiyyətdən gözləntiləriniz artır. Bu, qətnamədə ermənilərin əleyhinə olan məsələnin sənədə daxil edilməsinə arqument ola bilməz. Çünki bu görüşlər yaxşı heç nə ilə nəticələnməyəcək və böyük ehtimalla belə də olacaq, gözləntiləriniz alınmayacaq".

***Əfsanə BAYRAMQIZI,***
***"Xalq qəzeti"***

# Azərbaycanın ərazi bütövlüyünün beynəlxalq aləmdə daha bir təsdiqi



**Bu günlərdə Azərbaycanın ATƏT Parlament Assambleyasındakı nümayəndə heyəti xarici siyasətimiz üçün ciddi uğur hesab ediləcək nailiyyət əldə edib. Təşkilatın Lüksemburqda keçirilmiş 28-ci illik sessiyasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində mühüm rol oynayacaq yeni yanaşmalar ortaya qoyulub. "Təhlükəsizliyin təmin olunması üçün dayanıqlı inkişafın gücləndirilməsi: Parlamentlərin rolu" mövzusuna həsr olunmuş sessiyada müxtəlif məsələlərə yanaşı, Siyasi işlər və təhlükəsizlik komitəsinin hazırladığı qətnamə layihəsi müzakirə olunub.**

ATƏT Parlament Assambleyasının bütün sənədlərində mövcud münaqişələrin dayanıqlı inkişaf və insan hüquqlarının təmini üçün əsas maneə olması xüsusilə vurğulanır. Bu vəziyyət, təbii ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də aiddir.

Məsələ bundadır ki, qətnamədə irəli sürülmüş müddəalar Ermənistanın ATƏT PA-dakı nümayəndə heyətinin etirazına səbəb olub. Ermənistanın diplomatik xidmətinin əvvəlcədən müxtəlif ölkələrlə apardığı aktiv danışıqlara və erməni deputatların çoxsaylı çıxış və görüşlərinə baxmayaraq, Azərbaycan nümayəndə heyətinin səyləri nəticəsində qətnamə layihəsində münaqişələrin həlli üçün yeni yanaşma olduğu kimi saxlanılıb, heç bir düzəlişə məruz qalmayıb.

Birinci növbədə qeyd edilməlidir ki, ATƏT və digər beynəlxalq təşkilatların praktikasında ilk dəfə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazisindəki münaqişələrə eyni yanaşmanın tətbiq olunmasının vacibliyi sənəddə öz əksini tapıb. Azərbaycan ictimaiyyəti şahiddir ki, indiyədək müxtəlif ölkə və təşkilatlar Dağlıq Qarabağ münaqişəsinə xüsusi yanaşma tətbiq etməyə çalışıblar. Ermənistan nümayəndə heyəti hətta Azərbaycanın adının yuxarıdakı siyahıdan çıxarılmasını təklif etsə də, bunun lehinə cəmi 6 səs verilib. Təklif 41 səs çoxluğu ilə rədd edilib.

Ümumiyyətlə, bir neçə bənddən ibarət olan qətnamədə Azərbaycan, Ukrayna, Gürcüstan və Moldova ərazilərində mövcud olan münaqişələrin suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipi əsasında həlli üçün nəticəyönümlü danışıqların aparılmasına çağırış öz əksini tapıb. Bu isə Ermənistanın öz müqəddəratını təyinetmə prinsipindən sui-istifadə etməsinin qarşısını alır. Sonrakı bəndlərdə danışıqların formatının dəyişdirilməsi yolverilməz hesab edilir ki, bu da Ermənistanın separatçı Dağlıq Qarabağ rejimini danışıqlar masasına cəlb etmək cəhdinin üstündən xətt çəkir. Sənəddə münaqişə ərazisi kimi yalnız Azərbaycan göstərilir və bu, Dağlıq Qarabağ və işğal olunmuş ətraf rayonların Azərbaycan ərazisi olduğunu bir daha təsdiq edir.

Qətnamə ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının prinsiplərinə uyğun - güc tətbiq etməmə, ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyinetmə hüququ əsasında nizamlanmalı olduğunu bir daha təsdiqləyib. Hesab edirik ki, ATƏT-in bu sənədi Azərbaycan diplomatiyasının beynəlxalq müstəvidə qazandığı mühüm qələbədir və gələcək danışıqlarda haqlı mövqeyimizi müdafiə etməyimizə kömək edəcək.

***Nizami SÜLEYMANOV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, tarix elmləri doktoru***

# Leyla Əliyevanın yorulmaz ictimai-siyasi fəaliyyəti Azərbaycan gəncliyinə örnəkdir



**Milli Məclisin deputatı Rauf Əliyev bildirib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çoxsahəli, yorulmaz fəaliyyəti artıq Azərbaycanın ictimai-siyasi həyatında öz yerini tutmuşdur. Xeyirxahlıq, qayğıkeşlik, məqsədyönlülük Leyla Əliyevanın ictimai-siyasi fəaliyyətini xarakterizə edən əsas amillərdəndir. O, özündə Azərbaycan gəncliyinin ən yaxşı keyfiyyətlərini birləşdirir, ölkəmizin gələcəyi üçün yorulmadan çalışır və qarşıya qoyduğu hədəflərə çatır.**

Deputat qeyd edib ki, Leyla Əliyevanın fəaliyyəti müxtəlif sahələri əhatə edir: “Leyla xanım Heydər Əliyev Fondunun vitse-prezidenti, 2007-ci ildən Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri, “Xocalıya ədalət!” kampaniyasının təşəbbüskarı və lideri, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) sədri, “Bakı” jurnalının təsisçisi və baş redaktoru, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoqunun baş koordinatoru, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvüdür. Eyni zamanda, Leyla Əliyeva ona həvalə edilmiş digər vəzifələri uğurla həyata keçirir. Leyla xanımın geniş fəaliyyəti Azərbaycan cəmiyyətinin müxtəlif sahələrində müsbət dəyişikliklərin əldə olunmasına, insanların mövcud problemlərinin həllinə kömək göstərir. Onun fəaliyyətinin əsas istiqamətlərindən biri ölkəmizdə valideyn himayəsindən məhrum, sağlamlıq imkanı məhdud, əlil uşaqlara daim diqqət və qayğının göstərilməsi ilə bağlıdır. Leyla xanımın gördüyü hər bir iş, onun rəhbərliyi ilə həyata keçirilən hər bir layihə Azərbaycanın inkişafı naminə yerinə yetirilir. Onun beynəlxalq miqyasda həyata keçirdiyi layihələr Azərbaycanın dünyada daha yaxından tanıdılmasında, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə əsl həqiqətlərin dünya ictimayyətinə çatdırılmasında mühüm rol oynayır. Leyla Əliyeva Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə əldə olunan uğurlara öz töhfəsini verir”.

Deputat vurğulayıb ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın enerjisi, yüksək bacarığı tam əminliklə deməyə əsas verir ki, bundan sonra da onun rəhbərliyi ilə yeni-yeni layihələr, təşəbbüslər və tədbirlər uğurla həyata keçiriləcək.

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən Hərbi Dəniz Qüvvələrinin (HDQ) şəxsi heyətinin döyüş hazırlığı səviyyəsinin yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər davam etdirilir.**

# Müdafiə naziri HDQ-nin infrastruktur obyektinin açılışında iştirak edib



Müdafiə Nazirliyindən verilən məlumatda bildirilir ki, nazir general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti HDQ-nin hərbi hissələrindən birində yeni inşa edilən infrastruktur obyektinin açılışında iştirak edib və burada yaradılan şəraitlə tanış olub.

Müdafiə naziri qərargah, matros yataqxanaları, tibb məntəqəsi, digər xidməti və inzibati otaqlara, eləcə də ərazidəki qurğu və avadanlıqlara baxış keçirib.

Məruzə olunub ki, yaradılan şərait şəxsi heyətin hərbi hissə qarşısında qoyulan vəzifə və tapşırıqları daha keyfiyyətli və effektiv icra etməsinə imkan yaradacaq.

**“Xalq qəzeti”**

# Azərbaycan–Rusiya əməkdaşlığı müzakirə edilib



**İqtisadiyyat naziri Şahin Mustafayevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Yekaterinburqa səfəri çərçivəsində Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovla görüşüb.**

Görüşdə Sverdlovsk vilayətinin qubernatoru Yevqeni Kuyvaşev, iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, Azərbaycanın Rusiyadakı ticarət nümayəndəsi Ruslan Əliyev, Azərbaycanın Yekaterinburqdakı baş konsulu İlqar İsgəndərov və digər şəxslər iştirak ediblər.

İqtisadiyyat Nazirliyindən aldığımız məlumatda bildirilir ki, nazir Denis Manturov Azərbaycan və Rusiya prezidentlərinin ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsinə böyük önəm verdiklərini, yüksək səviyyəli intensiv qarşılıqlı səfərlərin bunun bariz nümunəsi olduğunu vurğulayıb. Denis Manturov bir sıra sahələrdə, o cümlədən sənaye, ticarət və investisiya sahələrində əməkdaşlıqda müsbət dinamikanı qeyd edərək, bu istiqamətdə işlərin davam etdirilməsinin, müəssisələr arasında əməkdaşlıq və birgə layihələrin həyata keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Denis Manturov X “İnnoprom” sərgisi barədə ətraflı məlumat verib, tərəfdaş ölkə kimi Türkiyənin iştirakını, gələn il isə tərəfdaş ölkənin İtaliya olacağını bildirib. Rusiyalı nazir Azərbaycan tərəfini bu ilin sentyabrında Sankt-Peterburqda keçiriləcək “Neva” gəmiçilik sərgisinə dəvət edib.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının həmsədri, iqtisadiyyat naziri Şahin Mustafayev vurğulayıb ki, Azərbaycan və Rusiya dövlət başçılarının siyasi iradəsi və birgə səyləri ölkələrimiz arasında iqtisadi əməkdaşlığın genişlənməsi üçün möhkəm zəmin yaradır. Azərbaycanda uğurla həyata keçirilən sənayeləşmə siyasəti, ölkəmizin sənaye potensialı, yaradılmış sənaye parkları və məhəllələri, əməkdaşlığın genişləndirilməsi imkanları barədə məlumat verən Şahin Mustafayev Rusiya ilə əməkdaşlığın inkişafına mühüm əhəmiyyət verildiyini vurğulayıb.

Görüşdə sənaye, o cümlədən neft-qaz maşınqayırması, gəmiqayırma, xüsusi avadanlıqlar, kənd təsərrüfatı texnikası istehsalı, eləcə də nəqliyyat, aqrar, əczaçılıq və digər sahələrdə əməkdaşlığın inkişafı, birgə müəssisələrin təşkili, Azərbaycan məhsullarının Rusiyaya ixracının artırılması, Rusiya Federasiyasının regionları ilə əlaqələrin genişləndirilməsi və s. məsələlər müzakirə olunub.

Görüş çərçivəsində Gəncə Avtomobil Zavodu və “Kamaz” ASC arasında ehtiyat hissələrinin tədarükünə dair müqavilə, “ATEF” şirkətlər qrupu və “Sinara Qrup” SC arasında Anlaşma Memorandumu, AZPROMO və “Qazprombank” SC arasında əməkdaşlığa dair niyyət protokolu imzalanıb.

Yekaterinburqa səfəri zamanı Azərbaycan nümayəndə heyəti X “İnnoprom” beynəlxalq sənaye sərgisində iştirak edib. Sərgi çərçivəsində Azərbaycan və Rusiya iş adamları arasında ikitərəfli görüşlər keçirilib, əməkdaşlığın genişləndirilməsinə, yeni əlaqələrin qurulmasına dair müzakirələr aparılıb.

Qeyd edək ki, 2010-cu ildən etibarən hər il keçirilən “İnnoprom” sərgisi Rusiyanın əsas sənaye, ticarət və ixrac platformalarındandır. Sərginin ziyarətçilərinin böyük əksəriyyətini istehsalda yeni texnologiyaların tətbiqində maraqlı olan alıcılar və mütəxəssislər təşkil edir. Hər il sərgiyə dünyanın müxtəlif ölkələrindən 45 mindən çox ziyarətçi gəlir.

***Samirə ƏLİYEVA, “Xalq qəzeti”***

# Bakı Ali Neft Məktəbində “Cisco” Akademiyası açılacaq



**Bakı Ali Neft Məktəbində (BANM) “Cisco” şirkətinin nümayəndələri ilə görüş keçirilib. Görüşün əsas məqsədi şirkətin ali məktəblə birgə effektiv əməkdaşlığının qurulması və perspektiv fəaliyyətin müzakirəsi olub. BANM-dan aldığımız məlumatda bildirilir ki, görüşdə “Cisco” şirkətinin Azərbaycan üzrə meneceri İbrahim Səidov, innovasiya üzrə direktoru Ramil Eyyubov, şirkətin əsas partnyorlarından olan “AzNEXT”in baş direktoru Səməd Abbasov və şəbəkələr üzrə mütəxəssisi Emin Seyidov, BANM-in Proseslərin avtomatlaşdırılması mühəndisliyi kafedrasının müdiri Nailə Allahverdiyeva və kafedranın professor-müəllim heyəti iştirak edib.**

BANM-in rektoru Elmar Qasımov ölkədə fəaliyyət göstərən bir çox yerli və beynəlxalq şirkətlərlə olduqca effektiv əməkdaşlıq qurulduğunu bildirib.

Rektor “Cisco” kimi nüfuzlu şirkət ilə əməkdaşlığı strateji maraq kəsb etdiyini vurğulayıb. O, gələcəkdə BANM-da Cisco Şəbəkə Akademiyasının və təlim mərkəzinin açılmasının proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan tələbələrin yüksək səviyyəli mütəxəssis kimi yetişməsində əvəzsiz rol oynayacağını şirkət nümayəndələrinin diqqətinə çatdırıb.

“Cisco” şirkətinin Azərbaycanda innovasiya üzrə direktoru Ramil Eyyubov bildirib ki, şirkətin əsas istiqamətlərindən biri təhsil sahəsidir və şirkətin nümayəndələri ölkədə fəaliyyət göstərən BANM kimi nüfuzlu tədris müəssisəsi ilə əməkdaşlıq qurmağa maraqlıdır.

O qeyd edib ki, gələcəkdə BANM-la qurulmuş əməkdaşlıq nəticəsində şirkətin əməkdaşları proseslərin avtomatlaşdırılması mühəndisliyi ixtisasında təhsil alan tələbələri avtomatika sahəsində peşəkar təlimçi kimi yetişdirə bilər.

Görüşdə həmçinin gənclərin innovasiya sahəsindəki startap ideyalarının dəstəklənməsi, zəruri laboratoriyaların qurulması, şəbəkə təhlükəsizliyi və kibertəhlükəsizlik kimi məsələlər də müzakirə olunub.

Şəbəkə texnologiyaları üzrə qlobal brendlərdən sayılan “Cisco” şirkəti 1984-cü ildən fəaliyyət göstərir. Şirkətin dəstəyi ilə yaradılmış Cisco akademiyalarında İT texnologiyalarının əsasları və əməliyyat sistemləri, əşyaların interneti, proqramlaşdırma, şəbəkə texnologiyaları, şəbəkə təhlükəsizliyi və kibertəhlükəsizlik istiqamətləri üzrə təlim kursları keçirilir.

**Samirə ƏLİYEVA, “Xalq qəzeti”**

# Yeni geosiyasi qüvvə: Türkiyə-Çin əməkdaşlığı inkişafda



**Hazırda dünyada geosiyasi proseslər daha mürəkkəb və daha təhlükəli polimorf transformasiyalar şəraitində cərəyan edir. Xüsusilə, böyük dövlətlər arasında münasibətlərdə yeni risklər meydana gəlir. Hər kəs bilir ki, ABŞ – Rusiya, ABŞ – İran, ABŞ – Çin münasibətləri kifayət qədər gərgindir. Onların, bütövlükdə, bəşəriyyət üçün təhlükələr yaratdığı da sirr deyil. Bu səbəbdən, “Böyük iyirmilər”in (G20) Osaka sammitinə ümid çox idi. Orada ikitərəfli danışıqlar formatı da diqqət mərkəzində olub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Yaponiya və Çin rəhbərliyi ilə geniş müzakirələr aparıb. Yaponiyada Sindzo Abe ilə ayrıca görüşdükdən sonra, Çinə səfər edən Türkiyə dövlət başçısı Pekində olduqca əhəmiyyətli razılaşmalar əldə edib. İki ölkə, demək olar ki, bütün sahələrdə layihələr realaşdırmaqla bağlı ortaq fikrə gəliblər. Buraya iqtisadiyyat, energetika, nəqliyyat, ticarət, müdafiə və hərbi sənaye də daxildir. Həmin məsələlərin fonunda Türkiyə Prezidentinin Çin səfərinin geosiyasi məqamları üzərində geniş dayanmağa ehtiyac gördük.**

### *Ankara – Pekin xətti: fərqli əməkdaşlıq ritminə keçid*

Türkiyə Prezidenti R.T.Ərdoğanın G20 ölkələri liderlərinin sammitindən sonra Asiya qitəsinin nüfuzlu dövlətlərinin başçıları ilə apardığı müzakirələrin qlobal geosiyasi dinamikaya təsir edəcəyi ehtimal olunur. Ekspertlər, faktiki olaraq, Ankaranın ciddi geosiyasi addım atdığını yazırlar. Doğrudan da, müzakirə edilən mövzularla bağlı əldə edilən razılıqlara baxdıqda, bu fikrin reallığa uyğun olduğunu görürük.

Hələ “İyirmilik” qrupu ölkələrinin sammitində Türkiyə rəhbəri Çin, Rusiya və Yaponiya liderləri ilə səmərəli görüşlər keçirmişdi. Vladimir Putinlə aparılan müzakirələr haqqında geniş informasiya verilib. Yaponiyanın Baş Naziri S.Abe ilə keçirilən görüş də maraqlı olub. Tərəflər böyük əməkdaşlıq layihələri həyata keçirmək barədə razılıq əldə ediblər. Yaponiya Türkiyə ilə bütün sahələrdə əlaqələrin inkişafında maraqlı olan ölkədir. Bundan başqa, hər iki dövlət İran məsələsində ortaq mövqedədir. R.T.Ərdoğan jurnalistlərlə söhbətində S.Abenin Tehranda İran rəhbərliyi ilə görüşünün detallarını açmadığını vurğulamaqla yanaşı, ümumi bir razılığın əldə edilmədiyini də deyib.

Belə məlum olur ki, İranla sıx münasibətlərinin olmasına baxmayaraq, S.Abe Amerika-İran münaqişəsində vasitəçi rolunu oynamaqda çətinlik çəkir. Həmin səbəbdən, Yaponiyanın Baş Naziri R.T.Ərdoğanla birlikdə hərəkət etmək təklifində bulunub. Bunu Türkiyə Prezidenti məmnunluqla qarşılayıb. Eyni zamanda, qeyd edib ki, digər böyük dövlətlər, məsələn, Amerika belə bir təklif etməyib. Ümumiyyətlə, Qərb dövlətləri Türkiyə ilə bu barədə danışmağa meylli deyillər. Səbəbi aydındır: Qərb hesab edir ki, müsəlman Türkiyə İranın tərəfini tutacaq. Qərbə isə ancaq öz maraqlarına xidmət edə bilən “obyektiv vasitəçi” lazımdır. Problemin kökü bundadır.

Belə çıxır ki, Yaponiya ABŞ və Avropa dövlətlərindən fərqli olaraq, həqiqi mənada İranla bağlı yaranmış çətinliyi ədalətli yoluna qoymaqda maraqlıdır. Ancaq çətin ki, Qərb buna imkan verməK istəsin. Artıq onlar İranı vurmağın müxtəlif ssenarilərindən bəhs edirlər. Hətta ABŞ, Böyük Britaniya və İsrailə məxsus F-35-lərin İraq və Suriyada koordinasiyalı hərəkəti məşq etdiklərindən yazırlar. Bunu İrana ola biləcək hücum öncəsi təlim kimi də qiymətləndirirlər.

Təbii ki, bu, çox qorxulu gedişatdır və bu proses başqa böyük dövlətlərin də öz tədbirlərini almasını şərtləndirir. Bu aspektdə Türkiyə – Rusiya – Çin –Yaponiya xəttində baş verə biləcək hadisələr maraq doğurur. Həmin çərçivədə R.T.Ərdoğanın Çinə səfəri olduqca böyük əhəmiyyət kəsb edir. Çin KİV-lərinin yazdığına görə, iki böyük dövlət demək olar ki, bütün məsələlərdə ortaq fikrə gəliblər. Xüsusilə, uyğur məsələsində R.T.Ərdoğanın son dərəcə böyük səbir və xoş niyyətlilik nümayiş etdirməsi Pekini məmnun edib. Belə görünür ki, uyğurlarla bağlı vəziyyəti süni olaraq şişirdən dairələr mövcuddur. Ankara bunun fərqindədir və təxribatlara qarşı zəruri tədbirlər görüləcək.

Bunlarla yanaşı, Çin və Türkiyə əhəmiyyətli iqtisadi, nəqliyyat və geosiyasi razılıqlar əldə ediblər. İki ölkə ticarət dövriyyəsini 50 milyard ABŞ dolları səviyyəsinə yüksəltməyi qərara alıblar. Bu, indiki həcmdən iki dəfə çoxdur. Maraqlıdır ki, Pekin bu təklifə çox müsbət yanaşıb və tərəflər asanlıqla razılığa gəliblər.

Lakin ekspertlər məsələnin heç də iqtisadi faktorlarla məhdudlaşmadığını ayrıca vurğulayır, bu kontekstdə iki məqama diqqət yetirirlər. Birinci məqam, Türkiyənin “Bir kəmər, bir yol” təşəbbüsündə daha aktiv iştirakını təmin etməklə bağlıdır. İkincisi isə qlobal geosiyasi məsələlərdə Ankara ilə Pekinin ortaq fəaliyyət göstərməsi ilə əlaqəlidir. Hər iki problem üzrə razılıq əldə edilib.

### *Ticarət, sabitlik və təhlükəsizlik: ümidlər artır*

Türkiyə Cümhuriyyətinin “Bir kəmər, bir yol” layihəsində iştirakı çox əhəmiyyətli və perspektivli sayılır. Çünki Türkiyə inkişaf etmiş nəqliyyat infrastrukturuna malikdir. Oraya gedən yollar Mərkəzi Asiyadan, İrandan, Azərbaycan və Gürcüstandan keçir. Türkiyə həm də Avropaya birbaşa çıxışdır. Ankara üçün xarici sərmayələrin əhəmiyyətinin nə dərəcədə böyük olduğu sirr deyil. Çünki ölkənin təbii ehtiyatları azdır. Xarici sərmayədarlar son illər bu ölkəyə gəlişlərini azaldıblar. Çin isə həmin itkiləri örtə bilər. Pekinin “Bir kəmər, bir yol” layihəsi ilə bağlı ayrıca maliyyə proqramları mövcuddur. Onların Türkiyədə də reallaşması üçün heç bir maneə yoxdur. Pekində aparılan danışıqlarda bu məqam aydın görünür.

Türkiyə Çinin bu böyük layihəsi çərçivəsində əsas nəqliyyat məkanlarından biri rolunu oynaya bilər. Ankara buna hazırdır. Onun Azərbaycan və Gürcüstandan keçən layihələrdə iştirakı həm təcrübə qazanmağa, həm də infrastrukturu təkmilləşdirməyə imkan verib. İranla da müxtəlif sferalarda əməkdaşlıq yaxşı inkişaf edib. Deməli, Çinin yeni layihəsi çərçivəsində iki ölkə perspektivli əməkdaşlıq edə bilər.

Məsələnin bu tərəfi Türkiyə ilə Çinin hərbi-sənaye və müdafiə sferalarında əməkdaşlıqları üçün də yaxşı zəmin yaradır. Pekindəki görüşdə ifadə olunub ki, hər iki ölkə hərbi texnologiyalar sahəsində müstəqil addımlar atırlar. Onların bu istiqamətdə fəaliyyətləri birləşdirmələri faydalı olardı. O cümlədən müasir hərbi texnika və silahların ortaq istehsalı mümkündür. Bu prosesə Türkiyənin NATO üzvlüyü və Rusiya ilə olan əməkdaşlığı qətiyyən maneə törətmir. Ekspertlər də hesab edirlər ki, vurğulanan sferalarda iki ölkənin ortaq layihələrdə iştirakı şansı yüksəkdir.

Bütün bunlar iki böyük dövlətin qlobal geosiyasi məsələlərdə, xüsusilə, Yaxın Şərq, Cənubi Qafqaz və Mərkəzi Asiyada əməkdaşlığının çox vacib olduğunu göstərir. Ekspertlər bu aspektə də xüsusi maraq göstərməkdədirlər. Türkiyə – Çin geosiyasi tandemi yarana bilərmi? İki ölkə arasında əlaqələrin inkişaf potensialı varmı? Ekspertlərə görə, hər iki dövlət müstəqil hərəkət etsə, bu imkan yüksək olacaq. Çünki Türkiyə Avrasiyanın qərbində, Çin isə şərqində parlayan ulduzdur. Onlar böyük bir geosiyasi məkanda həlledici rol oynaya bilərlər.

Üstəlik, Türkiyə İslam aləminin nüfuzlu dövləti olduğundan, onun vasitəsilə Çin bütün müsəlman ölkələri ilə əməkdaşlığı yeni səviyyəyə yüksəldə bilər. Ayrıca, uyğur məsələsində yeni müsbət qərarlar alına bilər. Belə çıxır ki, Türkiyə-Çin geosiyasi əməkdaşlığı geniş bir məkanda mənzərəni tamamilə dəyişə bilər. Buraya Rusiya və İran da əlavə olunsa, çox ciddi qlobal geosiyasi güc mərkəzi yaranmış olur.

Təsadüfi deyil ki, ekspertlər Türkiyə Prezidentinin Çinə səfərinin qlobal geosiyasi proseslərdə yeni vəziyyət yaratdığını bildirirlər. Çin və Türkiyənin qarşılıqlı fayda əsasında fəaliyyət göstərməsi bütövlükdə qüvvələr nisbətini dəyişir. İndi bu cür vədlərin reallaşmasından çox şeylər asılıdır.

Beləliklə, Türkiyə Prezidentinin G20 sammiti çərçivəsində apardığı müzakirələr və ayrılıqda Yaponiya və Çin rəhbərləri ilə keçirdiyi görüşlər əhəmiyyətli və maraqlı nəticələr verib. Türkiyənin ticari əlaqələrinin bir neçə dəfə artması perspektivi yaranıb. Bu, Qərbin sanksiyalar siyasətinin tüğyan etdiyi bir mərhələdə əhəmiyyətli prosesdir. Əgər hadisələr həmin aspektdə inkişaf etsə, onda Qərbin dünya miqyasında təsiri xeyli azalmış olacaq. Artıq orada anlamalıdırlar ki, dünyanı təzyiq və cəzalarla idarə etmək zamanı keçmişdə qalıb. İndi qarşılıqlı fayda verə bilən layihələrin zamanıdır. Bu meyarı gözləməyənlərin perspektivi dumanlı görünür.

Türkiyəyə gəldikdə isə, bu ölkə müstəqil siyasəti ilə öz real gücünü getdikcə daha açıq şəkildə ortaya qoyur. İndi Ankaranın iştirakı olmadan Yaxın Şərqdə heç bir problemi həll etmək mümkün deyildir. Liviyadakı hadisələr və Kipr ətrafında baş verənlər də bunu bir daha təsdiq etməkdədir. Türkiyə heç bir sahədə geri addım atmaq fikrində deyil, əksinə, vədlərinə tam əməl etməyə çalışır.

Əlbəttə, Türkiyənin daha sürətli inkişafı region dövlətlərinin hamısına sərfəlidir (Təbii ki, Ermənistanla bağlı tərəddüdlər qalmaqdadır). Çünki tarixən siyasətdə ədalətə daha çox türk dövlətləri sahib çıxıblar. İndi də dünyanın ədalətə və beynəlxalq hüquqa ehtiyacı çoxdur. Buna görə də Türkiyənin uğuru həm də Azərbaycanın qazancıdır. Türkiyənin inkişafı ədalətin yayılması perspektivinin genişlənməsi deməkdir.

**Newtimes.az**

# Xarici xəbərlər

## Özbəkistan

### Orta Asiyada ən hündür göydələn



Özbəkistanın paytaxtı Daşkənddə Orta Asiyanın ən hündür göydələni inşa ediləcək. Bildirilir ki, 50 mərtəbəli binanın hündürlüyü 215 metr təşkil edəcək. 150 milyon dollara başa gələcək layihəni Türkiyənin "Türk Özgüven" tikinti şirkəti həyata keçirəcək.

**Xəbəri BBC verib.**

## İsveçrə

### Ən yaxşı ölkə



Yaşamaq və işləmək üçün dünyanın ən yaxşı ölkəsi İsveçrədir. Bu göstərici üzrə ikinci yeri Sinqapur tutur. İlk üçlüyü isə Kanada tamamlayır. Qeyd edək ki, bu, "HSBC Expat" təşkilatının tədqiqatı nəticəsində bəlli olub. Reytinq 18 min əcnəbi işçi arasında keçirilmiş sorğu əsasında tərtib edilib.

**Məlumatı "Euronews" yayıb.**

## Hollandiya

### Elektromobil istehsalında yenilik



Bir müddət əvvəl hollandiyalı mütəxəssislər tərəfindən ictimaiyyətə təqdim edilmiş "Lightyear One" elektromobilinin yeni versiyası hazırlanır. Bildirilir ki, yeni versiya digər elektromobillərlə müqayisədə enerji doldurma stansiyalarından daha az asılı olacaq. Səbəb isə yeni modelin Günəş batareyaları ilə təchiz edilməsidir. Bildirilir ki, Günəş batareyasından hər saat ərzində enerji yüklənməsi avtomobilə 12 kilometrə qədər əlavə məsafə qət etməyə imkan verəcək. Yeni modelin 2021-ci ildə satışa çıxarılacağı açıqlanıb.

**Xəbəri "Auto.tut.by" verib.**

## İsveç

### Plastik qablara qadağa



İsveçdə qida məhsulları üçün plastik stəkanların və məmulatların, eləcə də konteynerlərin satışı qadağan edilir. Bunu İsveçin ətraf mühit naziri İzabella Lövin bildirib. Deyib ki, İsveç hökuməti qida məhsulları üçün plastik məmulatların qadağası haqqında məsələni nəzərdən keçirir. Qeyd olunur ki, qadağaya dair layihə hakim Sosial Demokrat və Yaşıllar partiyaları tərəfindən hazırlanıb.

**Məlumatı "The Sun" yayıb.**

## İtaliya

### Lopezə görə 30 milyon avro




İtaliya "A" Seriyasının aparıcı futbol klublarından olan "Roma" La Liqa təmsilçisi "Real Betis"in ispaniyalı qapıçısı Pau Lopezi transfer edib. Lopezin keçidi "Roma"ya 30 milyon avroya başa gəlib. Sövdələşmənin digər detalları tam açıqlanmayıb.

**Xəbəri "Soccernews" verib.**

**Hazırladı: Elçin ABBASOV, "Xalq qəzeti"**

# *VLADİMİR ZELENSKİ:* Donbasda müharibəni dayandıracaq yeganə "silah" diplomatiyadır



❐ ***Ukrayna Prezidenti Vladimir Zelenski bəyan edib ki, Donbasda münaqişənin təxminən bir ildən sonra başa çatacağına ümid edir. Bu barədə o, Ukrayna-Avropa İttifaqı sammitində brifinq zamanı bildirib. Məlumatı "Lenta.ru" verib.***

Ukrayna liderinin sözlərinə görə, tərəflər davamlı şəkildə atəşin dayandırılması istiqamətində irəliləyir. "Anlaşma isə istədiyimiz kimi tez alınmır. Ona görə ki, biz sözün bütün mənalarında minalanmış sahə ilə gedirik", – deyə Zelenski bəyan edib.

Onun sözlərinə görə, Donbasda müharibəni dayandıracaq və sülhü qaytaracaq yeganə "silah" diplomatiyadır. Bununla yanaşı, Donbasın bərpası üçün hələ qarşıda çoxlu işlər var.

İyulun 8-də Zelenski Rusiya Prezidenti Vladimir Putinə müraciət edərək, Donbasda vəziyyəti nizamlamaq üçün Minskdə danışıqlar aparmağı təklif etmiş, sammitin ABŞ Prezidenti Donald Trampın, Almaniya Kansleri Angela Merkelin, Böyük Britaniyanın Baş naziri Tereza Meyin və Fransa lideri Emmanuel Makronun vasitəçiliyi ilə baş tuta biləcəyini bildirmişdi.

Buna cavab olaraq Kremlin rəsmi nümayəndəsi Dmitri Peskov bəyan etmişdi ki, Zelenskinin təklifinə baxılacaq, ancaq Rusiya tərəfi hələ cavab verməyə hazır deyil. Onun sözlərinə görə, Ukrayna Prezidenti tamam yeni format təklif edir: "Birincisi, başa düşmək lazımdır ki, belə bir görüşün perspektivi varmı, ikincisi, bilmək gərəkdir ki, bu təklif olunan nə formatdır".

İyulun 1-də isə Zelenski demişdi ki, Donbasda müharibənin dayandırılacağını, sabah sülh olacağını vəd edə bilməz. Ancaq hesab edir ki, qoşunların təmas xəttindən geri çəkilməsindən sonra "müharibənin qaynar fazasının başa çatdığına kövrək ümidlər" yaranıb.

***Paşa ƏMİRCANOV, "Xalq qəzeti"***

# Bakıda köhnə liftlərin yerində müasirləri quraşdırılır







**Prezident İlham Əliyevin Bakı şəhərində çoxmənzilli binaların lift təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı müvafiq sərəncamının icrası ilə əlaqədar Bakı Şəhər "Lifttəmir" İstehsalat Birliyinin bu sahədə beynəlxalq təcrübəsi və geniş texniki imkanları olan Almaniya Federativ Respublikasının "Wittur holding GMBH" şirkəti ilə imzaladığı müqavilədə bu ilin sonuna kimi paytaxta 542 liftin gətirilməsi nəzərdə tutulub.**

İlk 63 dəst lift ölkəmizə gətirilib və paytaxtın Nizami rayonunda quraşdırılmasına başlanıb. İlin sonuna kimi bütün liftlər gətiriləcək və quraşdırılacaq. Hazırda liftlərin birinci hissəsi Qara Qarayev prospekti 47 ünvanında yerləşən 10 bloklu, 9 mərtəbəli yaşayış binasında quraşdırılır.

KİV nümayəndələrinə yeni liftin texniki göstəriciləri barədə verilən məlumatda qeyd olunur ki, bu avadanlıq keyfiyyət və texniki parametrlərinə görə müasir standartlara tam cavab verir. Kompleks işlər çərçivəsində köhnə liftlər demontaj edilir, liftlərin şaxtaları, binanın damında lift avadanlığının yerləşdiyi otaqlar təmir olunur, üstünə ruberoid çəkilir.

Məlumatda bildirilir ki, Bakı şəhəri üzrə çoxmərtəbəli binalarda istismar müddəti ötmüş liftlərin hamısı dəyişdiriləcək. Bağlanan müqavilələrə və görülən işlərə Bakı Şəhər İcra Hakimiyyəti ciddi nəzarət edir.

***R.TAHİR, "Xalq qəzeti"***

# Şimali Koreya iki yeni marka buraxıb

❐ ***Pxenyanda iki yeni marka buraxılıb. Markalar aprel sammitində Koreya Xalq Demokratik Respublikasının lideri Kim Çen In və Rusiya Prezidenti Vladimir Putinə həsr edilib.***





Xatırladaq ki, bu ilin aprelində Şimali Koreya lideri Vladivostokda Rusiya Prezidenti Vladimir Putinlə görüşmüşdü.

Markalar rus və koreya dillərindədir.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***



# Neftin qiyməti azaldı və artdı

❐ ***Londonun "İCE" Birjasının məlumatına görə, "Brent" markalı neftin qiyməti əvvəlcə azalaraq 63,67, sonra isə 0,12 faiz artaraq bir bareli 64,64 dollar olub.***

Nyu-York Əmtəə Birjasının məlumatına görə, Texas sortu adlandırılan ABŞ-ın "WTI" markalı neftinin qiyməti 0,10 faiz artaraq bir bareli 60,10 , Azərbaycanın "AzeriLight" markalı neftinin qiyməti 0,15 faiz artaraq bir bareli 66,21 dollar olub.

Ekspertlər bildiriblər ki, dünya bazarında "qara qızıl"ın qiymətinin artıb-azalmasının Yaxın Şərqdə baş verən gərginlikdir.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

## BİLDİRİŞ

**"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC**

**1.** "Ağsu rayonunun əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Qazanarx kanalının yenidən qurulması".

**2.** "Yevlax və Goranboy rayonları ərazisində 3120 hektar əkin sahəsi olan təsərrüfatların suvarma suyu ilə təmin edilməsi".

**3.** "Xalq qəzeti"nin 30 may və 14 iyun 2019-cu il tarixli nömrələrində dərc olunan Füzuli rayonu ərazisində 1200 hektar əkin sahəsi olan təsərrüfatın suvarma suyu ilə təmin edilməsi obyektləri üzrə açıq tenderin vaxtını 2019-cu il iyulun 19-dan 2019-cu il avqustun 9-dək uzatmışdır.

## BİLDİRİŞ

**Dövlət Turizm Agentliyinin "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti** tərəfindən Şahdağ Turizm Mərkəzi ərazisindəki müxtəlif qurğuların yoxlanılması və sınaqdan keçirilməsi xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda "RZ-İNTER" MMC qalib şirkət elan olunmuş və həmin MMC ilə müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

## BİLDİRİŞ

**Dövlət Turizm Agentliyinin "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti** tərəfindən dezinfeksiya xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda "PROF-DEZ" GM MMC qalib şirkət elan olunmuş və həmin MMC ilə müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

## BİLDİRİŞ

**Dövlət Turizm Agentliyinin "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyəti** tərəfindən sosial şəbəkələrdə marketinq (SMM) xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda "MARCOM" MMC qalib şirkət elan olunmuş və həmin MMC ilə müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

# Güclü yağış Vaşinqton küçələrini çaya döndərib

❐ ***Küləklə müşayiət olunan güclü yağış ABŞ-ın paytaxtı Vaşinqtonu və ətraf qəsəbələri iflic edib. Küçələr çaya dönüb. Hətta Ağ evin zirzəmisi də su ilə dolub.***



Meteoroloqlar bildiriblər ki, bəzi küçələrdə suyun səviyyəsi sürətlə artıb.

Sinoptiklərin proqnozuna görə, yaxın günlərdə siklon ABŞ-ın şərqinə doğru hərəkət edəcək. Tornado təhlükəsi gözlənilir. Artıq bu barədə əhaliyə xəbərdarlıq edilib.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

## BİLDİRİŞ

"Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu" Publik Hüquqi Şəxs Qurban bayramı ilə əlaqədar heyvan kəsimi üçün müvəqqəti çadır və avadanlıqların satın alınması məqsədilə 2019-cu il iyunun 13-də keçirilmiş tenderdə "Novotrend" MMC qalib elan edilmiş və həmin təşkilatla 802 624.20 (səkkiz yüz iki min altı yüz iyirmi dörd manat 20 qəpik) manat məbləğdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

✓ ***DƏDRX tərəfindən Seyidov Raqub Ramazan oğlunun adına verilmiş RX seriyalı 0136250 nömrəli çıxarış itdiyi üçün etibarsız sayılır. Bakı, Xətai rayonu, Zığ yolu küçəsi ev 12 b, mənzil 6.***

✓ ***Əliyev Fərhad Musa oğlunun adına verilmiş Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

# Hava proqnozu

➲ **İyulun 10-da**

➲ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək. Gecə 20-25, gündüz 30-35, Bakıda gecə 23-25, gündüz 33-35 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-45 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu 23-24 dərəcəyə çatacaq.

➲ **Naxçıvan Muxtar Respublikasında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək. Gecə 17-22, gündüz 31-36 dərəcə isti olacaq.

➲ **Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 13-18, gündüz 19-24 dərəcə isti olacaq.

➲ **Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 20-25, gündüz 32-37 dərəcə isti olacaq.

➲ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 16-21, gündüz 26-31, dağlarda gecə 10-15, gündüz 20-25 dərəcə isti olacaq.

➲ **Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı gözlənilir. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 20-25, gündüz 32-37 dərəcə isti olacaq.

➲ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Şərq küləyi əsəcək. Gecə 20-22, gündüz 30-35, dağlarda gecə 15-19, gündüz 22-27 dərəcə isti olacaq.

# ALLAH RƏHMƏT ELƏSİN

Masallı rayonundan Rafil Hüseynov və rayon icra hakimiyyəti başçısı aparatının kollektivi Ekologiya və Təbii Sərvətlər Nazirliyi 1 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi Rəfayıl Tahirova əzizləri

**İLTİFAT VƏ CABİR TAHİROVLARIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC- nin Tikilməkdə olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyətinin rəhbərliyı və kollektivi iş yoldaşları Əhməd və Gülarə Məmmədovlara nəvələri

**SƏLİM SƏLİMOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüzünlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**HƏSƏN HƏSƏNOV**

**TELEFONLAR:**
Məsul katib: 493-61-02
Şöbələr: 493-59-03 (8 xətli), 493-69-47, 493-34-13, 493-34-23, 493-59-47, 493-45-18, 493-33-01, 598-84-13.
Reklam və elanlar: 493-82-21, Faks: (99 412) 493-02-80, 598-28-64;
E-mail: info@xalqqazeti.com, xalqqazeti@gmail.com



"Xalq qəzeti"nin kompyuter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 7547
SİFARİŞ 2244
QİYMƏTİ 40 qəpik

Çapa imzalanmışdır 00:00